# QARABAĞ AZƏRBAYCANDIR!

# Səs

№ 182 (6623) 6 oktyabr 2022-ci il. Qiymәti 60 qәpik




## Heydәr Әliyev - dövlәtçilik irsimiz üçün müstәsna xәzinә!

10

## İşıqlı gәlәcәk naminә şәhәrlәrimizi qururuq!

2




# NATO "ölüb", yenisi necә olmalıdır?





"Foreign Policy" ("Xarici Siyasәt") jurnalı NATO-
gәlәcәyi ilә bağlı maraqlı mәqalә ilә çıxış edib. Ko
nә NATO-nun çoxsaylı mәğlubiyyәtlәrә uğrayara
öldüyendәn bәhs edәn yazıda yeni NATO-nun hәlә do-
ğulmadığı vә gәlәcәkdә bu istiqamәtdә hansı addımların
atılacağı tәxminlәr xüsusi olaraq qeyd edilib.

## MEDİA vә DHA-nın rәhbәr heyәti arasında görüş keçirilib



5

## Şәhidlәrin әmanәtlәri ilә bağlı hansı işlәr görülür?



5

## Plastikdәn istifadәni azaltmaq üçün nә edә bilәrik?



7

## Xәrçәngin dәrmanı tapıldı - Onkoloq-cәrrah şok faktlar açıqladı!





## Kimlәrin pensiyası artacaq?



## DİQQӘT: Tәmiz balı saxta baldan necә ayırd etmәk olar?

"Saf bal bir neçә xüsusiyyәtinә görә, saxta baldan fәrqlәnir. Balı qaşıqla götürdükdә bal qaşıqdan su kimi süzülürsә vә ya saqqız kimi uzanmırsa, demәli, bu bal saxta baldır.

16

# İşıqlı gələcək naminə şəhərlərimizi qururuq!




*İlham Əliyev: "Biz bütün gücümüzü və potensialımızı səfərbər edirik ki, keçmiş məcburi köçkünlər öz yurdlarına tezliklə qayıtsınlar"*

***Beynəlxalq tədbirlərin keçirildiyi məkan olaraq tanınan Azərbaycan növbəti dəfə ilk beynəlxalq şəhərsalma tədbirinə - "Azərbaycan Milli Şəhərsalma Forumu"na ev sahibliyi edir.***



Oktyabrın 5-də BMT-nin Yaşayış Məskənləri Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda ”Dayanıqlı İnkişaf Məqsədləri” və ”Yeni Şəhər Gündəliyi” - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi” mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu işə başlayıb. 44 ölkədən 130-dan çox nümayəndənin, ümumilikdə isə 400 nəfərdən çox insanın qatıldığı Azərbaycan Milli Şəhərsalma Forumu şəhərlərin bərpası ilə bağlı beynəlxalq və çoxtərəfli əməkdaşlıq üçün yeni imkan yaradacaq və şəhər ərazilərində böhranların aradan qaldırılmasına dair çətinliklərin müəyyən edilməsi, həllərin müzakirəsi ilə bağlı bilik və təcrübə mübadiləsi aparmaq üçün platforma rolunu oynayacaq. Ölkəmizdə ilk dəfə məhz Ağdam şəhərində keçirilən Azərbaycan Milli Şəhərsalma Forumu şəhərsalma sahəsində dünyanın müxtəlif ölkələrindən olan sahə mütəxəssislərinin təcrübələrinin bölüşülməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından da nadir və uğurlu platformadır.

Bu il iyunun 27-də Polşanın Katovitse şəhərində keçirilmiş Ümumdünya Şəhər Forumunun ”Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək” mövzusunda 11-ci sessiyasında videoformatda çıxış edən Prezident İlham Əliyev Azərbaycan Ümumdünya Şəhər Forumunun növbəti sessiyalarının birinə ev sahibliyi etmək arzusundadır və buna hazırdır”, - deyə bildirmişdir. Qeyd edək ki, Ümumdünya Şəhər Forumu BMT-nin Yaşayış Məskənləri Proqramı (UN-HABITAT) tərəfindən hər iki ildən bir keçirilir.

## ”AĞDAM ŞƏHƏRİ İŞĞAL İLLƏRİ ƏRZİNDƏ DAĞIDILIB VƏ BURADA OLAN DAŞLAR OĞURLANARAQ SATILIB”

Artıq Forum işinə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər. Dövlət başçısı Azərbaycan Milli Şəhərsalma Forumunda çıxışı zamanı 30 ilə yaxın işğal altında olan torpaqlarımızın erməni vandalları tərəfindən dağıdıldığına toxunaraq ruhlar şəhrinə çevrilən Ağdamın real mənzərəsini diqqətə çatdırıb: ”Ağdam şəhəri işğal illəri ərzində dağıdılıb və burada olan daşlar oğurlanaraq satılıb. Ermənilər yalnız şəhərdəki Cümə məscidini tam dağıtmayıblar, çünki ondan müşahidə məntəqəsi kimi istifadə ediblər”. Dövlətimizin başçısı qeyd edib ki, ermənilər işğaldan azad olunmuş ərazilərdə məscidləri dağıdıblar: ”Yalnız Şuşa, Laçın və Kəlbəcərin bir hissəsində dağıntılar törədilməyib. Bunun səbəbi Ermənistanın beynəlxalq hüquq normalarını pozaraq köçürmə siyasəti aparması və bu ərazilərə erməniləri qeyri-qanuni köçürməsi olub”.

## ”ARTIQ BÖYÜK QAYIDIŞ PROQRAMI BAŞLAYIB”

30 ilə yaxın işğalçılıq siyasətini həyata keçirən Ermənistana Azərbaycan sülh təklif edir. Forumda çıxışı zamanı sülh sazişinin beynəlxalq hüququn beş prinsipinə əsaslanmalı olduğunu qeyd edən dövlətimizin başçısı bildirib ki, bu prinsiplərə ölkələrin bir-birinin ərazi bütövlüyünü qarşılıqlı tanıması, gələcəkdə hər hansı ərazi iddialarından uzaq durması, güc tətbiqindən çəkinməsi, sərhədlərinin delimitasiyası və kommunikasiyaların açılması daxildir: ”Artıq Böyük Qayıdış proqramı başlayıb. Bu ilin mayında Zəngilan rayonunda ilk kənd salınıb və ilk məcburi köçkünlər öz doğma yurdlarına qayıdıblar. Zəngilanda ilk məktəb açılıb və ilk gənclər də bu il həmin məktəbdə tədrisə başlayıblar”.

## ”DAĞIDILAN MƏSCİDLƏRDƏN İKİSİ AĞDAMDADIR”

Bu gün işğaldan azad olunmuş ərazilərdə məscidlərimiz, mədrəsələrimiz, körpülərimiz, məbədlərimiz nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir. İşğal dövründə həmin ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılmış, digər iki məscidə isə ciddi zərər dəymişdir. Qəbiristanlıqlar da vandalizmə məruz qalmışdır. ”Bizim işğaldan azad etdiyimiz torpaqlarda mövcud olan 67 məsciddən 65-i tamamilə dağıdılıb” deyən Cənab Prezident qeyd edib ki, dağıdılan məscidlərdən ikisi Ağdamdadır. Şuşadakı bir məscid isə qismən dağıntılara məruz qalıb.

30 ilə yaxın işğal altında olan ərazilərimizdə olan Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. erməni vandallığı ilə üz-üzə qalmışdır.

Ardı Səh. 3

# İşıqlı gələcək naminə şəhərlərimizi qururuq!






Əvvəli-Səh-2

Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir. Əlbəttə ki. Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş ”Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya”nın, ”Arxeoloji irsin qorunması haqqında” Avropa Konvensiyasının, ”Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya”nın müddəalarına ziddir.

Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə yaşadır.

## ”AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İRİMİQYASLI İNFRASTRUKTUR LAYİHƏLƏR İCRA EDİLİR”

Artıq Azərbaycanın Zəfər tarixindən iki il ötür. İşğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Tarixi abidələrimiz təmir və bərpa olunur. Ərazilər azad olunmasından sonra genişmiqyaslı yenidənqurma işlərinə başlanılıb. Qədim mədəniyyət paytaxtımız Şuşada ”Xarıbülbül” Musiqi Festivalı, Vaqif Poeziya Günləri keçirildi. Cəmi 8 ayda Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verildi, Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub. Ərazilərdə bərpa-quruculuq işləri sürətlə həyata keçirilir. Yol, nəqliyyat, enerji infrastrukturlarının geniş miqyasda həyata keçirilməsi, ermənilər tərəfindən dağıdılmış məscidlərin, müxtəlif icmalara məxsus dini abidələrin bərpa və təmiri işğalçı Ermənistana zərbədir.

Milli rifahın təmin edilməsi və işğaldan azad edilmiş ərazilərin bərpası üçün ölkəmizdə prioritet istiqamət olan dayanıqlı şəhərsalma sahəsində əldə edilmiş nailiyyətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, bu sahədə beynəlxalq əməkdaşlıq imkanlarının daha da genişləndirilməsi və şəhərlərin inkişafı üzrə tətbiq edilən inklüziv, ağıllı və dayanıqlı urbanizasiyaya əsaslanan təcrübə və yanaşmaların paylaşılması son dərəcə vacibdir. İlk Milli Şəhərsalma Forumunda 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan şəhərsalma, bərpa və quruculuq işlərinin, burada tətbiq olunan texnologiyaların, unikal təcrübənin və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına xüsusi diqqət yetirilir.

”Biz bütün gücümüzü və potensialımızı səfərbər edirik ki, keçmiş məcburi köçkünlər öz yurdlarına tezliklə qayıtsınlar”, - çıxışı zamanı bildirən dövlətimizin başçısı deyib ki, azad olunmuş ərazilərdə irimiqyaslı infrastruktur layihələr icra edilir: ”Siz Füzuli Beynəlxalq hava limanını gördünüz, o, səkkiz ay ərzində tikilib. Bu ay biz Zəngilan Beynəlxalq hava limanını açmağı və 2025-ci ildə isə Laçında Beynəlxalq hava limanını istifadəyə verməyi planlaşdırırıq”.

Bu uğurlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi əzmi, qətiyyəti ilə reallaşır.

***Nəzakət ƏLƏDDİNQIZI***





# “Biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, xalqa nə vəd vermişiksə, onu yerinə yetirmişik”




*"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 121-ci kitabı çapdan çıxıb. Çoxcildliyin yeni kitabındakı materiallar 2022-ci ilin iyul-sentyabr aylarını əhatə edir.*

İyul ayı ölkəmizin həyatında, eyni zamanda, ilin birinci yarısında görülmüş işlərə yekun vurulması ilə əlamətdardır. Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə daxili və xarici siyasətin uğurlu nəticələrindən bəhs edərək deyib: ”Gələn il görüləcək işlər, əminəm ki, ölkəmizi daha da gücləndirəcək. Biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, vədlərə əməl etmişik. Azərbaycan xalqına nə vəd vermişiksə, onu yerinə yetirmişik - bütün sahələrdə, o cümlədən iqtisadi və sosial sahədə. Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzumuz da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın”.

Yeni kitab Prezident İlham Əliyevin müşavirədəki nitqinin mətni ilə açılır. Dövlətimizin başçısının Türkiyəyə işgüzar səfəri zamanı Prezident Rəcəb Tayyib Ərdoğanla, eləcə də Konya şəhərində keçirilmiş V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşlərinə, İslamiadanın açılışında iştirakına dair materiallar da bu nəşrdə toplanıb.

Prezident İlham Əliyev iyul ayında Sumqayıtda Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma, 2 saylı Sumqayıt regional ”ASAN xidmət” Mərkəzinin istifadəyə verilməsi mərasimlərində iştirak edib. Avqust ayında isə Qobustan, İsmayıllı və Ağsu rayonlarında olub. İsmayıllıda ”Basqal Resort & SPA” hotelinin açılış mərasimində iştirak edib, ”Basqal” Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olub, Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibə verib. Bu səfərlərdən bəhs edən xəbərlər, eləcə də müsahibənin mətni yeni kitabda yer alıb.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen ilə görüşü, ”Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nun imzalanması mərasimi barədə materiallarla, habelə mətbuata bəyanatların mətni ilə tanış ola bilər.

Avqustun 24-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyevin qazaxıstanlı həmkarı ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib. Dövlətimizin başçısına Qazaxıstanın ”Altın kıran” - ”Qızıl qartal” ali ordeni təqdim olunub, iki ölkə arasında sənədlər imzalanıb. Daha sonra prezidentlər mətbuata bəyanat veriblər. Bütün bunlarla yeni nəşrdə tanış olmaq mümkündür.

Yeni kitaba dövlətimizin başçısının İtaliya Respublikasına işgüzar səfəri, İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasimi barədə informasiyalar, dövlətimizin başçısının mərasimdəki çıxışının mətni də daxil edilib. ”Azərnəşr” tərəfindən buraxılan çoxcildliyin 121-ci kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# ”Azərbaycan BMT-nin Məskunlaşma Proqramı ilə hərtərəfli əməkdaşlığın inkişafında maraqlıdır”





***Prezident İlham Əliyev oktyabrın 5-də Ağdamda BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul edib. Dövlətimizin başçısı BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycan arasında əməkdaşlıqdan məmnunluğunu bildirib.***

Bu ilin martında xanım Maimuna Mohd Şərifin Azərbaycana səfəri çərçivəsində keçirilmiş görüş zamanı müzakirə olunan məsələlərin reallaşdırılması istiqamətində əldə edilən irəliləyişləri müsbət qiymətləndirən Prezident İlham Əliyev Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə hərtərəfli əməkdaşlığın inkişafında maraqlı olduğunu qeyd edib.

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirib və Milli Şəhərsalma Forumunun yüksək səviyyədə keçirilməsinə görə təbriklərini çatdırıb. Azərbaycanla Məskunlaşma Proqramı arasında əməkdaşlığın hərtərəfli qaydada inkişaf etdiyini vurğulayan Maimuna Mohd Şərif Prezident İlham Əliyevin Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumunun 11-ci sessiyasındakı çıxışını məmnunluqla xatırlayıb, UN-HABITAT-ın Nyu-Yorkda keçirilən toplantısında, həmçinin Katovitsedəki tədbirdə Azərbaycan nümayəndə heyətinin fəal iştirakını yüksək qiymətləndirib. O, Azərbaycan hökumətinin UN-HABITAT-ın fəaliyyətinə verdiyi dəstəyə, o cümlədən könüllü maliyyə töhfəsinə görə dərin təşəkkürünü ifadə edib.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı şəhərsalma və yenidənqurma fəaliyyəti həyata keçirdiyinə toxunan BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru həmin ərazilərdə görülən işlərin miqyasından və sürətindən heyranlığını bildirib, qısa zaman ərzində ölkəmizin şəhərsalma sahəsində müasir yanaşmalar tətbiq edərək belə nailiyyətlər qazanmasını xüsusi vurğulayıb. O, həmçinin UN-HABITAT-ın bu prosesdə Azərbaycana dəstək verməyə hazır olduğunu bildirib və Azərbaycan üzrə hazırlanmış layihə sənədini dövlətimizin başçısının diqqətinə çatdırıb.

Prezident İlham Əliyev Azərbaycanın UN-HABITAT-la əməkdaşlığı bundan sonra da genişləndirəcəyini və Proqramın fəaliyyətinə dəstək göstərəcəyini bildirib. Dövlətimizin başçısı Milli Şəhərsalma Forumunun ölkəmizdə illik əsasda keçiriləcəyini qeyd edib.

Sonda qonaq Məskunlaşma üzrə ölkə proqramı sənədini - Azərbaycan Respublikasında BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq strategiyasını dövlətimizin başçısına təqdim etdi.

## Yuliya Qrişina: ”Müharibə dönəmində də azərbaycanlıların Ukraynaya aktiv dəstəyini görürük”

Müharibə dönəmində Azərbaycan dövləti Ukraynaya humanitar yardımlarını davam etdirir. Bu, bir daha onu göstərir ki, Azərbaycan Ukraynanın ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşır.

Bu fikri AZƏRTAC-a məxsusi müsahibəsində Ukrayna Ali Radasının deputatı, hakim ”Xalqın xidmətçisi” fraksiyasının üzvü Yuliya Qrişina söyləyib. ”Müharibənin ilk günlərindən Azərbaycan dövlətinin, burada yaşayan azərbaycanlıların, diaspor fəallarının aktiv dəstəyini görürük. Buna görə Azərbaycan xalqına təşəkkürümü bildirirəm”, - deyə deputat əlavə edib.



Yuliya Qrişina, həmçinin SOCAR-ın Ukraynadakı nümayəndəliyinin fəaliyyətini də təqdirəlayiq qiymətləndirib. ”SOCAR Energy Ukraine” müharibə başlayandan bəri Ukraynada təcili tibbi yardım, Fövqəladə Hallar Dövlət Xidmətinin avtomobillərini pulsuz yanacaqla təmin edir. Bu, müharibə dönəmində olduqca qiymətli addımdır”, - deyə Yuliya Qrişina vurğulayıb.

# Şəhidlərin əmanətləri ilə bağlı hansı işlər görülür?

***Şəhidlər və onların əmanəti hər bir Azərbaycan vətəndaşı üçün önəmlidir. Biz onlara hər zaman borcluyuq və bu borcu əsla ödəyə bilmərik. Bəs, bu gün onlarla, onların əmanətləri ilə bağlı hansı işlər görülür? Onlar işlə təmin olunurmu? Mövzu ilə bağlı SİA-nın sorğusuna Dövlət Məşğulluq Agentliyinin strateji kommunikasiya departamentinin müdiri Mayis Musayev cavab verib.***



QURUM RƏSMİSİ AÇIQLADI

Mayis Musayev ümumi olaraq qeyd edib ki, postmüharibə dövründə şəhid ailəsi üzvü, müharibə veteranı, müharibə iştirakçısı və digər bu kateqoriyaya daxil olan vətəndaşlardan 13 min 400 nəfər aktiv məşğulluq tədbirlərinə cəlb olunub: ”Bundan əlavə 8 min vətəndaş özünəməşğulluq proqramına cəlb olunur. Hansı ki, özünəməşğulluq proqramı çərçivəsində müxtəlif kənd təsərrüfatı və xidmət istehsal zərfləri üzrə mal və materiallarla təmin olunublar”.

***Ayşən Vəli***



# MEDİA və DHA-nın rəhbər heyəti arasında görüş keçirilib

***Medianın İnkişafı Agentliyində (MEDİA) Demirören İnformasiya Agentliyinin (DHA) rəhbər heyəti ilə görüş baş tutub. SİA-nın məlumatına görə, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, DHA-nın baş direktoru Celal Korkut, Təhsil Layihələri qrupunun direktoru Nuran Çakmakçı, İnsan Resursları qrupunun rəhbəri Elif Karacaoğlu və Trend Beynəlxalq İnformasiya Agentliyinin direktoru İlqar Hüseynov iştirak ediblər.***

Medianın İnkişafı Agentliyin icraçı direktoru Əhməd İsmayılov türkiyəli həmkarlarını Azərbaycanda media sahəsinin inkişafı üçün atılan addımlar, çap mediası və xəbər saytlarına dəstək proqramları, eləcə də digər təşəbbüslər barədə məlumatlandırıb.

Görüş zamanı Təhsil Layihələri Qrupunun Direktoru Nuran Çakmakçı, İnsan Resursları qrupunun rəhbəri Elif Karacaoğlu Türkiyədə yaradılan Demirören media peşə və texnologiya liseyi layihəsi haqqında da məlumat verib. ”Lisey bu gün ilk şagirdlərini qəbul edib. Şagirdlər bu peşəni bizimlə birgə öyrənəcəklər və liseyi bitirdikdən sonra mütləq şəkildə bu sektorda iş tapa biləcək səviyyədə olacaqlar”,- deyə qeyd edilib. Görüşdə həmçinin iki ölkə arasında əməkdaşlıq perspektivləri müzakirə olunub.

# “Zərərli vərdişlərə qarşı sosial fəallıq” mövzusunda tədbir keçirilib



Oktyabrın 5-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və ”Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci ilə dair imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq YAP Mərkəzi Aparatının və partiyanın Nəsimi rayon təşkilatının birgə təşəbbüsü ilə ”Zərərli vərdişlərə qarşı sosial fəallıq” mövzusunda maarifləndirici tədbir keçirilib.

Bakı Slavyan Universitetində keçirilən tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov bildirib ki, narkomaniya ilə mübarizə hər bir cəmiyyətin əsas vəzifələrindəndir. Onun sözlərinə görə, ölkəmizdə narkomaniyaya qarşı ciddi mübarizə aparılır. Azərbaycanın bu istiqamətdə müvafiq beynəlxalq konvensiyalara qoşulduğunu deyən təşkilat sədri qeyd edib ki, bu tədbir Azərbaycan Prezidentinin təsdiq etdiyi ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrasına uyğun olaraq keçirilir.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, bu problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsi prioritet məsələdir. Narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılma təhlükəsini nəzərə alaraq ölkəmizdə müvafiq proqramların qəbul edilməsi sağlam gələcəyimiz üçün önəmlidir. Bu proqramlara təhsil, səhiyyə ocaqlarında, hüquq mühafizə orqanlarında və digər təşkilatlarda narkomaniyanın ziyanı barədə maarifləndirmə kampaniyaları daxildir. Z.Musayeva gənclərin də bu prosesdə fəal iştirakının önəmini vurğulayıb.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev çıxışında bildirib ki, müasir dövrdə gənclərin zərərli vərdişlərdən qorunması olduqca aktualdır. Gənclər daha çox biliklər qazanmağa, sağlam həyat tərzinə üstünlük verməlidirlər.

Çıxış edən Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini, rayon üzrə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə komissiyasının sədri Zahid Xəlilov narkomaniya ilə mübarizədə milli qanunvericiliyin əhəmiyyətindən bəhs edib. Z.Xəlilov qeyd edib ki, hələ 1996-cı ildə ulu öndər Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə həsr olunmuş fərman imzalayıb. 1999-cu ildə isə Milli Məclis tərəfindən ”Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” qanun qəbul olunub. Azərbaycan Prezidenti İlham Əliyev isə bu istiqamətdə bir neçə dövlət proqramı təsdiq edib.

Tədbirdə, həmçinin YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Məhəmməd Məhərrəmov, ”Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin nümayəndəsi Şahin Verdiyev, Nəsimi rayon Polis İdarəsinin narkomaniyaya qarşı mübarizə şöbəsinin rəisi Valeh Əliyev, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun əməkdaşı Şahin İsmayılov və Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının müdiri, professor Pirəli Əliyev çıxış edərək narkomaniyaya qarşı mübarizədə sosial fəallığın önəmindən bəhs ediblər. Daha sonra tədbirdə iştirak edən tələbələrin sualları cavablandırılıb. Tədbir zamanı iştirakçılara Dövlət Komissiyasının işçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər, bukletlər paylanılıb.

# “Ehtiyat zabit hazırlığı kursu”na növbəti qəbul başlayıb

Müdafiə Nazirliyinin hərbi hissələrinə zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 30 yaşınadək namizədlər oktyabrın 22-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində (AO TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər. ”Ehtiyat zabit hazırlığı kursu”na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Həkim Komissiyasına göndəriləcəklər. Komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılacaqlar. Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər müvafiq ixtisaslar üzrə kursa qəbul ediləcəklər.



”Ehtiyat zabit hazırlığı kursu”nu müvəffəqiyyətlə başa vuran kursantlara ”leytenant” hərbi rütbəsi verilməklə zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanacaq və onlar ixtisaslarına uyğun vəzifələrə təyin olunacaqlar.

# Quruculuq meydanına çevrilən Ağdam şəhəri

***27 ildən sonra günəş şüaları ilə nurlanmış, işıqlı, ağ ev Ağdam Azərbaycana qaytarıldı. Ağdam rayonunun işğaldan azad olunması 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin noyabrın 20-də xalqa etdiyi müraciətdə söylədiyi kimi, "Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir"."Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız", - deyən Cənab Prezident bildirib ki, biz tarix yazırıq, yeni tarix: "Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq.***



Bu, Zəfər tarixidir".30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq keçmiş məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu status götürüldü. Ağdam sakinləri yurd-yuvasına dönür. Qalib dövlətin qalib sakini kimi. Tarixdə çox az xalqlara nəsib olan bir məqamdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi.

Erməni işğalından əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar zamanı aydın olub ki, ilk qədim insanlar rayon ərazisində 6-8 min il bundan əvvəl, yəni, eneolit dövründə (e.ə. VI-IV minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamışlar. Uzun bir tarixə malik olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olmuşdur. Mövcud dövlətini qədim Azərbaycan torpaqları üzərində qurmuş Ermənistan Azərbaycanın yeni bir ərazisini işğal etmək məqsədi ilə 1988-ci ilin fevralından başladığı müharibəyə ilk olaraq, məhz Ağdam rayonu cəlb olunmuş, hadisələrin ilk günlərindən ən böyük ağırlıqlar Ağdam rayonunun, onun əhalisinin üzərinə düşmüşdür. Ermənistandan öz ata-baba yurd yuvalarından, daha sonra Qarabağdan doğma isti ocaqlarından silah gücünə amansız vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı, məhz Ağdam rayonuna pənah gətirib. 1993-cü ilin iyul ayının 23-də Ağdam işğal olunur. 27 il sonra Ağdam işğaldan azad olundu və Azərbaycan öz haqqına qovuşdu. Bu gün Ağdam yeni günün yaşayır. 4 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri və burada yeni müəssisələrin təməlinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir.

### PƏNAHƏLİ XANIN SARAYI İNTERAKTİV MUZEY KİMİ FƏALİYYƏT GÖSTƏRƏCƏK

Dövlətimizin başçısı və Birinci xanım Pənahəli Xanın Sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın abidəsinin açılışında iştirak ediblər. Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də ermənilər tərəfindən dağıdılıb. Dövlət başçısının müvafiq tapşırığına əsasən, bu kompleksin bərpası işlərinə başlanılıb. Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksi üçün ilkin konsepsiya layihəsi İtaliyanın "ArtCloud Network International s.c.r.l." şirkəti tərəfindən hazırlanıb. Kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək. XIX əsr Azərbaycan romantik şeirinin görkəmli nümayəndəsi, şair, rəssam, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi erməni vandallarını təcavüzünə məruz qalmışdır. Prezident İlham Əliyevin 2022-ci il 14 mart tarixli Sərəncamı ilə bu il Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunduğu nəzərə alınaraq yubiley ilində Mədəniyyət Nazirliyi tərəfindən həmin qəbirüstü abidənin bərpa olunması istiqamətində işlərə başlanılıb. Şairənin qəbirüstü abidəsi özünün ilkin görkəmi əsasında heykəltaraş Kənan Əliyev tərəfindən 350 santimetr hündürlükdə boz qranit materialından hazırlanıb və əvvəlki yerində quraşdırılıb. Bütün bu və digər görülən işlər Ağdamın öz əvvəlki görkəminə qayıtması ilə yanaşı, daha müasir bir şəhər olaraq qurulacağını ehtiva edir.

### XIDIRLI VƏ KƏNGƏRLİ KƏNDLƏRİNİN TİKİNTİSİNƏ BAŞLANILIR

Xıdırlı kəndinin dövlət başçısı tərəfindən təməlinin qoyulması burada tezliklə yeni bir həyatın başlanacağından soraqdır. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin edilməsi planlaşdırılır.

Rayondan 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində də 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Prezident İlham Əliyev tərəfindən Kəngərli kəndinin təməli qoyuldu. Artıq bir neçə gündən sonra - oktyabrın 10-da hər iki kəndin tikinti işlərinə başlanılacaq. Kəndlərdə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur. Artıq öz əzəli torpaqlarımıza qayıtmışıq. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır və tezliklə Ağdam şəhəri də yenidən qurularaq, öz əzəli sakinlərini qoynuna alacaqdır.

***Zümrüd BAYRAMOVA***

# "Sülh razılaşması istiqamətində real addımlar atılır"

"Ermənistanın Baş naziri növbəti ziddiyyətli bəyanatını səsləndirdi, Azərbaycanla sülh danışıqlarına hazır olduqlarını və bu istiqamətdə işlərə başlandığını bildirdi. Amma çox maraqlıdır ki, Azərbaycanla sülh danışıqlarına "hazır olduğunu" bəyan edən Paşinyan bir neçə gün bundan öncə Azərbaycanın Qarabağla müzakirələrə başlamalı olduğunu və Qarabağın statusunun hansısa separatçı rejiminin tərəf kimi qəbul edilməsi ilə bağlı sərsəm bəyanat səsləndirmişdi". Bunu politoloq Anar Əliyev "Səs" qəzetinə açıqlamasında deyib.




Onun sözlərinə görə, Paşinyanın Fransa prezidenti Makronla görüşdən sonra belə bir bəyanatın səsləndirməsi daha ciddi qəbul edilə bilər: "Eyni zamanda, qeyd etmək istəyirəm ki Cənubi Qafqazda münasibətlərin tənzimlənməsi ilə bağlı qarşı-qarşıya dayanan iki tərəf var, Azərbaycan və Ermənistan. Hər iki tərəf sülh danışıqlarına hazır olduğunu və münasibətlərin sülh yolu ilə qurulmasında maraqlı olduqlarını, xüsusilə də qarşılıqlı iqtisadi, nəqliyyat, kommunikasiya əlaqələrinin açılmasına hazır olduqlarını bəyan edirlər. Amma tərəflərin ayrı-ayrılıqda sərgilədikləri real davranışları təhlili etdikdə görünür ki, bəli Azərbaycan bu günə qədər üzərinə götürdüyü öhdəlikləri, eyni zamanda, ayrı-ayrı şəxslərin xüsusilə Azərbaycan Prezidentinin dilindən səslənən bəyanatların hər birinin yerinə yetirilməsinə sadiqdir və bu istiqamətdə də real praktik addımlar atılır. Ermənistanla delimitasiya və dekorasiya prosesini və kommunikasiya əlaqələrinin qurulması ilə bağlı işçi qrupunun yaradılması və bu istiqamətdə atılan addımlar bağlı, Azərbaycanın qərb rayonlarının Naxçıvan bölgəsi ilə birləşdirəcək Zəngəzur dəhlizinin Azərbaycandan keçəcək hissəsi ilə bağlı demək olar ki, işlərin qısa müddətdə ərzində həyata keçirilməsi ilə bağlı Laçın dəhlizinin yeni alternativ yolun çəkilməsi və yüksək keyfiyyətli əlaqənin qurulmasına istiqamətlənmiş addımların atılması və bunu reallaşdırılması, atəşkəsin qorunması və davamlı sülhün əldə olunması istiqamətində Azərbaycan tərəfindən edilən real cəhdləri Ermənistanın təxribatçı addımları ilə münasibət bildirməsi göz önünə gəlir".

A.Əliyev onu da bildirdi ki, Azərbaycan üzərinə götürdüyü öhdəlikləri söz səviyyəsindən real həyatda da tətbiqinə başlayıb və ciddi nəticələr əldə edib: "Ermənistan isə bu günə qədər yalnız bəyanatlar səsləndirmək, öhdəliklər götürməklə bağlı fikirlər bildirmək və bunların real həyatda tətbiqi ilə bağlı heç bir praktik addımların atılmaması ilə yadda qalıb. Ona görə də, hesab edirəm ki, Paşinyanın səsləndirdiyi "Ermənistan Azərbaycanla sülh danışıqlarına hazırdır və bu istiqamətdə işlərə başlayır" fikri daha çox beynəlxalq ictimaiyyətə istiqamətlənmiş bir mövqedir. Burada başlıca hədəf Ermənistanın sülh tərəfdarı olduğunu, əksinə Azərbaycanın sülhdən daim yayındığını və aqressiv davranış nümayiş etdiriyini, Ermənistana qarşı işğalçılıq siyasəti olduğunu nümayiş etdirməyə çalışır. Yəni burada əsas başlıca hədəf bundan ibarətdir. Bu baxımdan, hesab edirəm ki, Azərbaycan tərəfi kifayət qədər bu günə qədər sərgilədiyi ehtiyatlı davranışı bundan sonra da davam etdirməlidir".

***Gülyana***

# Plastikdən istifadəni azaltmaq üçün nə edə bilərik?







***Son illər həyatımızın hər sahəsinə nüfuz edən, bütün canlıların, xüsusən də insanların sağlamlığına son dərəcə zərərli olan, təbiəti və sularımızı çirkləndirən plastiklərdən istifadə getdikcə artmaqdadır. İçdiyimiz su qabından mətbəxdə istifadə etdiyimiz saxlama qabına, istehlak etdiyimiz qidaların qablaşdırmasından istifadə etdiyimiz materiallara, təmizlik məhsullarına, kompüterlərə, telefona, lampadan elektrik kabellərinə qədər işıq mənbəyimiz, paltarlarımızdan tutmuş avtomobillərimizə qədər saya bilməyəcəyimiz bir çox yer plastiklə əhatə olunub.***

ARAŞDIRMA

## Bəs plastiklər həyatımıza nə vaxt daxil olub?

Plastik ilk dəfə 1862-ci ildə Alexander Parkes tərəfindən istehsal edilmişdir. Neylonun ixtirası ilə plastik gündəlik həyatımıza daxil olmağa başladı. İkinci Dünya Müharibəsi zamanı plastikə olan həddindən artıq tələbat onun istifadə sahəsini də genişləndirdi. 1950-ci illərdə ildə 2 milyon ton plastik istehsal edildiyi halda, bu gün dünyada hər il 350-400 milyon ton plastik istehsal olunur. Elmi araşdırmalar göstərir ki, plastik istehsalında bu artım davam edərsə, 2050-ci ilə qədər dünyada 34 milyard ton plastik olacaq.

## Təbiətə, ətraf mühitə, insanlara və heyvanlara zərər verən ən böyük düşmənin plastik olduğunu bilirikmi?

İstehsal olunan plastiklərin əksəriyyətinin xammalı neft və kömür kimi fosil materiallardır. Plastiklər qalıq yanacaqlardan istehsal edildiyi üçün onların istehsalı üçün milyonlarla barel xam neft və ton kömür emal edilməlidir. Bu gün xam neftin 4%-nin plastik istehsalı üçün istifadə edildiyi bildirilir. İstehsal etmək və istifadə etmək digər qalıq yanacaqlara nisbətən daha asan olduğundan, neftdən torbaların istehsalı dolayı yolla neftə olan tələbatı artırır. Bu, daha çox neftin emalına gətirib çıxarır. Neftin emalı və yanması zamanı təbiətə atılan zəhərli qazlar ətraf mühitin çirklənməsinə səbəb olur.

Plastiklərin ətraf mühitə vurduğu zərərlər bunlarla məhdudlaşmır, təbiətdə əriməsi uzun illər davam edən plastik tullantılar uzun müddət yox olma prosesində qida zəncirinə daxil olur və ətraf mühitə mənfi təsirləri ilə ekosistemin tarazlığını pozur. Torpağı və suyu çirkləndirir.

Plastikdən olan toksinlər günəşlə təmasda olduqda, insan sağlamlığını təhdid edən və ciddi sağlamlıq problemlərinə səbəb olan kanserogen təsirlərə səbəb ola bilər. Neylon torbaya isti qoyulan çörək, plastik torbanın istiliklə reaksiyası nəticəsində insanlar üçün zəhərə çevrilə bilər.

Okeanlarda yığılan plastik zibil dənizlərdə mexaniki aşınma və kimyəvi eroziya nəticəsində ciddi ekoloji problemlər yaradır.

İnsanların ətraf mühitə buraxdığı plastik tullantılar ətraf mühitə və insanlara zərər vurmaqla yanaşı, təbiətə buraxılan plastik tullantılar nəticəsində dənizlərdə yaşayan canlılara və bu canlılarla qidalanan vəhşi heyvanlara da mənfi təsir göstərir. küləklərin təsiri ilə dənizlər.

Bunun üçün insanların plastikdən istifadə edərkən və istehlak edərkən şüurlu davranması, onları tullantı kimi atarkən məsuliyyətli olması və istifadəsini mümkün qədər minimuma endirməsi üçün ən vacib həllər kimi qarşımıza çıxır.

İqlim dəyişikliyi ilə yanaşı, plastik çirklənmə günümüzün ən böyük iki ekoloji problemindən biridir. Ümumbəşəri miqyasda hərəkətə keçməsi lazım olan bu problemlərdən biri olan plastik çirklənmənin qarşısını necə almaq olar? Bütün bu plastiklərin hara getdiyi sualı hamımızın ağlındadır, elə deyilmi?

Amma cavab göründüyü qədər sirli deyil. Bu gün istehsal olunan plastik tullantılarının böyük bir hissəsi dənizlərə, sonra isə okeanlara yayılır və orada nəhəng yığınlar halında həll olunmamış qalır. Bu tullantılar o qədər böyük kütlə təşkil edirdi ki, dünyanın "yeddinci qitəsi"nin plastik tullantılardan ibarət olacağı deyilirdi; 7 milyon ton ağırlığında üzən plastik... İstifadə etdiyimiz bütün plastik materialların dənizə tökülməsi dolayısı ilə bizə təsir edir, amma əslində dənizdə yaşayan canlılara ilk zərərli təsirini verir. Suda yaşayan minlərlə canlı bu plastik tullantılara görə ya keyfiyyətsiz həyat sürür, ya da yaşaya bilmir. Mövcud təmiz suyu, eləcə də plastik torbalara, torlara, qutulara ilişib qalmış minlərlə canlını çirkləndirən bu tullantılar sonrakı illərdə də indiki sürətlə artmağa davam edərsə, bir çox dəniz canlılarının nəsli kəsiləcək.

- Hər il təxminən 5 trilyon plastik torba istehsal olunur və hər il təxminən bir milyard quş və məməlilər plastik tullantıları həzm edərək ölür.

- Plastik çirklənmədən təsirlənən canlı növlərinin sayı 400-ə yaxındır.

- 1950-ci ildən bəri 8,3 milyard tondan çox plastik istehsal edilib və bu plastiklərin 60%-i poliqonlara və ya birbaşa ətraf mühitə atılır.

- 2015-ci ildə 6300 ton plastik tullantı əmələ gəlib və bu tullantıların yalnız 9%-i təkrar emala yönəldilib.

- Əgər tədbir görülməsə, plastik tullantıların 2050-ci ilə qədər 56 milyard ton karbon emissiyasına səbəb olacağı təxmin edilir.

Dəniz balıqlarının demək olar ki, yarısının mədələrində mikroplastik hissəciklər var.

## Plastik torbalar 1000 il, plastik butulkalar 400 il təbiətdə yoxa çıxmır

Plastik tullantılar təbiətə ən çox zərər vuran tullantı növlərindən biridir. Təbiətə atılan plastik tullantı illərlə, hətta əsrlərlə yoxa çıxmaya bilər. Xüsusən də torpağın plastik udmaq qabiliyyəti olmadığı üçün torpaqda uzun müddət qalan plastik torpağa zəhərli və zərərli kimyəvi maddələr buraxır. Torpaqda yaşayan canlılar zamanla plastik tullantıları həzm etməyə çalışır və plastiğin mənfi təsirlərinə məruz qalırlar. Plastik torba təbiətə atıldıqdan təxminən 1000 il sonra tamamilə yox olur. Eynilə, plastik boşqabların təbiətdə yox olması üçün 500 il, pet şüşələr üçün isə 400 il lazımdır. Bundan əlavə, təbiətdəki plastik tullantılar neftdən qaynaqlandığı üçün karbon dioksid emissiyasına təsir edərək qlobal istiləşməni sürətləndirir.

Dünyada plastik istehsalının çox hissəsi Asiya ölkələrində həyata keçirilir. Lakin onların əksəriyyəti aşağı keyfiyyətli plastik məhsullardan ibarətdir. Çin dünyanın ən böyük plastik istehsalçısı kimi birinci yerdədir. Çini Avropa ölkələri izləyir. Bir çox ölkədə plastikin ətraf mühitə vurduğu zərərə görə plastik torbaların istifadəsini azaltmaq üçün araşdırmalara başlanılıb. Bəzi ölkələrdə bunun üçün müxtəlif qadağalar tətbiq edilib. ABŞ və Avropadan başqa, Meksika və Hindistan kimi bəzi ölkələr də plastik torbalardan istifadəni qadağan edib. Bəzi ölkələrdə plastik torbalar ödənişli olaraq istehlakçılara verilir.

## Plastikdən istifadəni azaltmaq üçün nə edə bilərik?

* Plastik torbaların istifadəsini məhdudlaşdırmalıyıq. Alış-veriş üçün parça çantalar və ya şəbəkələrdən istifadə edə bilərik.

* Bazardan aldığımız tərəvəz və meyvələri torbaya deyil, kağız torbaya qoya bilərik. Eyni şəkildə, soyuducuda bir kağız torbada saxlaya bilərik.

* Plastik torbalar təkrar emal edilməlidir.

* Plastik saxlama qabları, boşqablar yerinə şüşə, keramika və ya metal məmulatlardan istifadə edə bilərik. Eyni şəkildə, plastik qablar yerinə bəzi qəhvə zəncirlərinin üstünlük verdiyi kimi karton qablaşdırılmalardan istifadə etməyə üstünlük verə bilərik.

* Plastik pet butulkalar yerinə şüşə və ya metal butulkalara üstünlük verə bilərik.

* Fərdi qulluq vasitələrində sintetik tekstil məhsulları yerinə plastiksiz məhsullara, təbii pambıq və kətanlara üstünlük verə bilərik.

## STATİSTİKA

* Hər il təxminən 5 trilyon plastik torba istehsal olunur.

* Hər il təxminən 1 milyard quş və məməlilər plastik tullantıları yeyərək ölür.

* Dənizdə yaşayan balıqların demək olar ki, yarısının mədələrində mikroplastik hissəciklər var.

* Aydındır ki, plastiklərin geniş yayılmasına insanların tələbləri öz təsirini göstərir.

* Ona görə də bu plastik çirklənmənin qarşısını alacaq da insanlardır. Bunun üçün ictimaiyyəti Plastiklərin zərərləri haqqında maarifləndirmək lazımdır.

* Plastik çirklənməni azaltmaq üçün görüləcək tədbirlərdən biri də plastik torbaların ödənişlə verilməsidir. Son illərdə plastiklərin ətraf mühitə təsiri qlobal miqyasda zərərlər haqqında "maarifləndirmə" artmağa başladı. Bir çox beynəlxalq təşkilat plastik tullantıların ətraf mühitə vurduğu ziyanı və onların həlli yollarını müzakirə edirlər.

* Bəzi ölkələr ödənişli olaraq birdəfəlik plastik torbalar istehsal edir.

***Qönçə Quliyeva***

# NATO "ölüb", yenisi necə olmalıdır?





**"Foreign Policy" ("Xarici Siyasət") jurnalı NATO-nu gələcəyi ilə bağlı maraqlı məqalə ilə çıxış edib. Köhnə NATO-nun çoxsaylı məğlubiyyətlərə uğrayaraq öldüyündən bəhs edən yazıda yeni NATO-nun hələ doğulmadığı və gələcəkdə bu istiqamətdə hansı addımların atılacağı təxminlər xüsusi olaraq qeyd edilib. Məqalədə gələcək NATO-nun dörd modelindən danışılıb, lakin onların heç birinin indikinə uyğun gəlmədiyi və ümumiyyətlə, yeni yaranacaq, ya da rekonstruksiya ediləcək hərbi birliyə üzv ölkələr arasında hansı paytaxtların adını oxuyacağıq. Çünki dünyada çox şey dəyişib və həm Çin, həm də Rusiya artıq ittifaq üçün çox sərt rəqibə çevriliblər.**



ANALİTİK

## Transatlantik alyansın gələcəyi üçün dörd mümkün variant

Jurnal onu da qeyd edir ki, daimi dəyişikliklərin yaşandığı dünyada transatlantik tərəfdaşlığın davamlılığına xüsusi ehtiyac duyulur. NATO-nun xeyli yaşı var. Şimali Atlantika Müqaviləsi Kraliça II Elizabetin Böyük Britaniyanı idarə etdiyindən daha uzun müddətdir mövcuddur. Onun ilkin mənası: "Sovet İttifaqını Avropadan kənarda, amerikalıları içəridə, almanları isə nəzarətdə saxlamaq". İndi bu məqsədlər əvvəlkindən daha az aktualdır (Rusiyanın Ukraynadakı xüsusi əməliyyatına baxmayaraq), lakin yenə də Atlantikanın hər iki tərəfində refleks nostalji oyadır. NATO-nun yaranması və "transatlantik cəmiyyət" ideyasının başlanmasından sonra nə qədər dəyişdiyini nəzərə alsaq, bu uzunömürlülük xüsusilə diqqətəlayiqdir. Doğrudan da, Varşava Müqaviləsi artıq mövcud deyil və Sovet İttifaqı dağıldı. Birləşmiş Ştatlar 20 ildən artıqdır ki, Yaxın Şərqdə və onun ətrafında baha başa gələn və uğursuz müharibələr içərisindədir. Çin qlobal təsiri az olan yoxsul ölkədən dünyanın ikinci ən güclü ölkəsinə çevrilib və liderləri gələcəkdə daha da böyük qlobal rola can atırlar. Avropa da dərin dəyişikliklərə məruz qalıb: ağır demoqrafik keçidlər, təkrarlanan iqtisadi böhranlar, Balkanlarda vətəndaş müharibələri və 2022-ci ildə Ukraynada uzun müddət davam edəcək dağıdıcı hərbi münaqişə.

Düzdür, "transatlantik tərəfdaşlıq" tamamilə statik deyildi. NATO öz tarixi boyu sıralarına 1952-ci ildə Yunanıstan və Türkiyədən başlayaraq, 1982-ci ildə İspaniya, daha sonra 1999-cu ildə keçmiş Sovet müttəfiqləri və nəhayət, İsveç və Finlandiyadan başlayaraq yeni üzvlər əlavə etdi. . Alyans daxilində yük bölgüsü də dəyişdi, Avropanın çox hissəsi Soyuq Müharibənin bitməsindən sonra müdafiəyə verdiyi töhfəni kəskin şəkildə azaltdı. NATO həmçinin doktrinalarında bəzi dəyişikliklərə məruz qalıb, bəziləri digərlərindən daha əhəmiyyətlidir.

Ona görə də indidən soruşmağa dəyər ki, transatlantik tərəfdaşlıq gələcəkdə hansı formada olmalıdır. O, öz missiyasını necə formalaşdırmalı və alyans daxilində öhdəlikləri necə bölüşdürməlidir? Birgə Müdafiə Fondunda olduğu kimi, keçmiş uğur gələcəyin təminatı deyil, ona görə də yüksək performansa nail olmaq istəyən ağıllı "portfel menecerləri" şərtlər dəyişdikcə NATO-nun aktivlərini tənzimləməlidirlər. Sual yaranır: öz tarixini, cari hadisələri və onların gələcəkdə mümkün inkişafını nəzərə alsaq, transatlantik tərəfdaşlığın ümumiyyətlə, mövcud olacağını fərz etməklə hansı perspektivi formalaşdırmalıdır?. Gələcək üçün ən azı dörd müxtəlif NATO modeli təklif etmək olar.



### Model 1: "Heç nəyi dəyişmə"

Aşkar yanaşmalardan biri və NATO-nun bürokratik çevikliyini və siyasi ehtiyatlılığını nəzərə alsaq, bəlkə də ən çox ehtimal olunan yanaşma alyansın hazırkı tənzimləmələrini az və ya çox dəyişməz saxlamaq və onlara mümkün qədər az toxunmaqdır ("Şimali Atlantika" ifadəsi NATO-nun orijinal adı). Eyni zamanda, ABŞ Ukrayna böhranı zamanı olduğu kimi Avropanın "birinci müdafiə xətti" və alyansın şəksiz lideri olaraq qalacaq. Hərbi xərclərin yükü qeyri-bərabər olaraq qalacaq: ABŞ-ın hərbi gücü alyansın digər üzvlərinin hərbi imkanları üzərində mütləq üstünlük təşkil edəcək və Amerikanın nüvə çətiri NATO müttəfiqlərini əhatə etməyə davam edəcək. Uzaq xaricdəki missiyalar öz yerini Avropa problemlərinə daha çox diqqət yetirməyə imkan verəcək. Və belə bir prioritet NATO-nun Əfqanıstan, Liviya və Balkanlarda keçmiş avantüralarının acı nəticələri fonunda daha çox haqlı olacaq.

Ədalət naminə qeyd etmək lazımdır ki, bu model bir sıra açıq üstünlüklərə malikdir. "Sem dayı" hələ də Avropada olduğu müddətcə qitə dövlətləri aralarındakı münaqişələrdən narahat olmayacaqlar. Artan silahlanma xərclərini ödəmək üçün öz dəbdəbəli "rifah" sistemlərini azaltmaq istəməyən Avropa hökumətləri Vaşinqtonun alyansın hərbi yükünün qeyri-mütənasib payını daşımağa icazə verməkdən məmnun olacaqlar. Aydın dominant imkanlara malik bir ittifaqın aydın liderinin olması, başqa cür zəif olan koalisiya daxilində daha sürətli və daha ardıcıl qərarların qəbul edilməsini asanlaşdıracaq.




Buna görə də, bu ciddi səbəblər başa düşüləndir ki, kimsə bu modeldən hansısa şəkildə kənara çıxmağı təklif edəndə ”inadkar” atlantiklər həyəcan təbili çalır.

ABŞ-ı Avropanın ”baş müdafiəçisi” kimi saxlamaq Vaşinqtonun güc balansına təhlükələrin daha çox olduğu və hərbi-siyasi vəziyyətin daha çətin olduğu Asiyaya kifayət qədər vaxt, diqqət və resurslar ayırmasına mane olur. ABŞ-ın Avropaya güclü bağlılığı qitədəki bəzi potensial münaqişələri səngitmiş ola bilərdi, lakin bu, 1990-cı illərdə Balkanlarda müharibənin qarşısını ala bilmədi və ABŞ-ın Ukraynanı qərb təhlükəsizlik orbitinə çəkmək səyləri mahiyyət etibarilə Ukraynada mövcud hərbi münaqişəyə səbəb oldu. Bu, əlbəttə ki, Qərbdə kiminsə planlaşdırdığı kimi deyil, amma real nəticələr məhz belə oldu. Ukraynanın döyüş meydanındakı son uğurlarından bəziləri ümidvericidir, lakin Ukrayna hərbi münaqişəsi ümumiyyətlə olmasaydı, bu, hamı üçün daha yaxşı olardı.






Üstəlik, ”heç bir şey etmə” modeli Avropanı müdafiəsi üçün üçüncü gücdən asılı olmağa təşviq edir və Avropanın xarici siyasətinin həyata keçirilməsində ümumi arxayınlığa və realizmin olmamasına töhfə verir. Əgər çətinliyə düşən kimi dünyanın ən qüdrətli gücünün yanınızda olacağına əminsinizsə, o zaman xarici enerji təchizatından həddən artıq asılılıq risklərini və yaxınlarda sürünən avtoritarizmə həddən artıq dözümlülük risklərini görməməzlikdən gəlmək sizin üçün daha asandır. Kimsə bunu etiraf etmək istəmir, bu model Birləşmiş Ştatların təhlükəsizliyi və ya rifahı üçün həmişə həyati əhəmiyyət kəsb etməyən ABŞ-ı periferik münaqişələrə sürükləmək potensialına malikdir.

## Model 2: Dünya demokratiyası

Transatlantik təhlükəsizlik əməkdaşlığının ikinci modeli NATO üzvlərinin (əksəriyyət) ortaq demokratik xarakterini və demokratiyalar və avtokratiyalar (xüsusilə Rusiya və Çin) arasında artan uçurumu vurğulayır. Bu baxış Bayden administrasiyasının ortaq demokratik dəyərləri vurğulamaq səylərinin və demokratiyanın hələ də dünya səhnəsində avtokratiyadan üstün ola biləcəyini sübut etmək istəyinin əsasını təşkil edir. NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin ”Demokratiyalar Alyansı Fondu” məhz bu konsepsiyanı əks etdirir.

Əsas diqqəti Avropa təhlükəsizliyinə yönəldən ”heç nəyi dəyişməyin” modelindən fərqli olaraq, transatlantik tərəfdaşlığın ikinci modeli daha geniş qlobal gündəliyi əhatə edir. O, müasir dünya siyasətini demokratiya ilə avtokratiya arasında ideoloji mübahisə kimi təqdim edir və hesab edir ki, bu mübarizə qlobal miqyasda aparılmalıdır. Əgər Birləşmiş Ştatlar Asiyaya ”çevirirsə”, onun avropalı tərəfdaşları da regionda demokratik sistemlərin müdafiəsi və təşviqi kimi geniş məqsədlə bunu etməlidirlər. Bu vizyona uyğun olaraq, Almaniyanın Hind-Sakit okean bölgəsindəki yeni strategiyası yerli demokratiyalarla daha güclü əlaqələrə çağırır və Almaniyanın müdafiə naziri bu yaxınlarda 2024-cü ildə orada genişlənmiş dəniz mövcudluğunu elan etdi.

Bu modelin üstünlüyü onun sadəliyidir. Demokratiya yaxşıdır, avtokratiya pisdir. Lakin onun qüsurları qat-qat çoxdur. Birincisi, belə bir struktur ABŞ və ya Avropanın dəstəkləməyi seçdiyi avtokratiyalarla (Səudiyyə Ərəbistanı və ya digər Körfəz monarxiyaları, Vyetnam kimi potensial Asiya tərəfdaşları kimi) münasibətləri qaçılmaz olaraq çətinləşdirəcək. Bu baxımdan Transatlantik Tərəfdaşlığı tüğyan edən ikiüzlülükdə ittiham etmək olar. İkincisi, dünyanı dost demokratiyalara və düşmən diktaturalara bölmək, şübhəsiz ki, ikincilər arasındakı bağları gücləndirəcək və birincini ”parçala və hökmranlıq et” oyunundan uzaqlaşdıracaq. Bu baxımdan ABŞ-ın keçmiş prezidenti Riçard Nikson və onun müşaviri Henri Kissincerin 1971-ci ildə maoçu Çinlə yaxınlaşması Kreml üçün yeni başağrısı yaradanda bu sxemi qəbul etmədilər.

Nəhayət, demokratik dəyərləri gündəmə gətirməklə, transatlantik tərəfdaşlığı demokratiyanı mümkün olan hər yerdə yaymağa çalışan bir növ səlibçi nizama çevirmək riski yaşanır. Bu məqsəd nə qədər mücərrəd görünsə də, son 30 il inandırıcı şəkildə göstərdi ki, alyansın heç bir üzvü praktikada buna necə nail olmağı bilmir. Demokratiyanı ixrac etmək son dərəcə çətindir və adətən uğursuz olur, xüsusən də üçüncü tərəf onu zorla tətbiq etməyə çalışdıqda. Hətta NATO-nun bəzi hazırkı üzvlərində də demokratiyanın acınacaqlı vəziyyətini nəzərə alsaq, bunu alyansın əsas səbəbi hesab etmək olduqca kixotik görünür.

## Model 3: Çinə qarşı qlobal səhnəyə çıxmaq

Model 3 model 2-nin yaxın qohumudur, lakin transatlantik əlaqələri demokratiya və digər liberal dəyərlər ətrafında təşkil etmək əvəzinə, yüksələn Çini əhatə etmək üçün Avropanı ABŞ-ın daha geniş səylərinə cəlb etməyə çalışır. Əslində, bu model Amerikanın çoxtərəfli Avropa tərəfdaşlıqlarını Asiyada artıq mövcud olan ikitərəfli ”ulduz” razılaşmaları ilə birləşdirməyə və ABŞ-ın gələcək illər ərzində qarşılaşacağı yeganə ciddi rəqibə qarşı çıxmaq üçün Avropanın potensialından istifadə etməyə çalışır.

Bu, zahirən cəlbedici bir modeldir və onun ilk təzahürlərindən biri kimi ABŞ, Böyük Britaniya və Avstraliya arasında AUKUS müqaviləsini göstərmək olar. Avropanın artıq Çini yalnız gəlirli bazar və dəyərli investisiya tərəfdaşı kimi görmədiyinə və ona qarşı ”yumşaq tarazlığa” başladığına dair artan sübutlar var. Sırf Amerika nöqteyi-nəzərindən Avropanın iqtisadi və hərbi potensialının ABŞ-ın əsas rəqibinə qarşı yönəldilməsi çox arzuolunan olardı.

Ancaq bu modeldə iki açıq problem var. Birincisi, dövlətlər təkcə güclər balansından deyil, həm də təhdidlər balansından çıxış edirlər və bu qiymətləndirmələrdə coğrafiya həlledici rol oynayır. Çin daha güclü və daha iddialı ola bilər, lakin onun ordusu Asiyadan keçib Avropaya zərbə endirmək niyyətində deyil və donanması dünyanı gəzib Avropa limanlarını blokadaya almayacaq. Rusiya Çindən çox zəifdir, lakin daha yaxındır və onun son davranışları narahatlıq doğurur. Buna görə də, Avropa Çinin hərbi potensialına qarşı ciddi səylərdən daha çox ”yumşaq balanslaşdırma” gözləməlidir.

NATO-nun avropalı üzvləri Hind-Sakit okean regionunda qüvvələr balansına hər hansı əhəmiyyətli təsir göstərə biləcək hərbi imkanlara malik deyillər və onların yaxın gələcəkdə belə imkanlara yiyələnmək ehtimalı azdır. Ukraynadakı münaqişə Avropa dövlətlərini öz hərbi qüvvələrini yenidən qurmağa ciddi yanaşmağa sövq edə bilər, lakin onların səylərinin çoxu Rusiyadan müdafiə və onun qarşısını almaq üçün yer, hava və kəşfiyyat vasitələrinin əldə edilməsinə yönələcək. Avropa nöqteyi-nəzərindən bu məntiqlidir, lakin bu qüvvələrin əksəriyyəti Çinin iştirak etdiyi hər hansı münaqişəyə aidiyyatı yoxdur. Hind-Sakit okeana bir neçə Alman freqatının göndərilməsi Almaniyanın orada dəyişən təhlükəsizlik mühitinə marağını göstərmək üçün yaxşı bir yol ola bilər, lakin bu, regional güc balansını dəyişməyəcək və Çinin ambisiyalarına çox şey etməyəcək.

Təbii ki, Avropa başqa yollarla - xarici hərbi qüvvələrin hazırlanmasına kömək etməklə, silah satmaqla, regional təhlükəsizlik forumlarında iştirak etməklə Çini balanslaşdırmağa kömək edə bilər və ABŞ bu cür səyləri alqışlamalıdır. Ancaq heç kim onun Hind-Sakit Okean əməliyyatlar teatrında ciddi iştirakını gözləməməlidir. Bu modeli həyata keçirmək cəhdi yalnız məyusluğa və transatlantik ziddiyyətlərin artmasına səbəb olacaq.

Model 4: Yeni əmək bölgüsü

Növbəti model ən düzgün modeldir. Transatlantik tərəfdaşlıq üçün optimal gələcək modeli Avropanın öz təhlükəsizliyi üçün əsas məsuliyyəti öz üzərinə götürdüyü və ABŞ-ın Hindistana daha çox diqqət yetirdiyi yeni əmək bölgüsüdür. ABŞ NATO-nun formal üzvü olaraq qalacaq, lakin Avropanın ”ilk müdafiəçisi” olmaq əvəzinə onun müttəfiqinə çevriləcək. Bundan sonra ABŞ yalnız regional güc balansının fəlakətli şəkildə pisləşəcəyi təqdirdə Avropa sahillərinə qayıtmağı planlaşdıracaq.

Bu model bir gecədə həyata keçirilə bilməz və Birləşmiş Ştatlar öz avropalı tərəfdaşlarına ehtiyac duyduqları hərbi imkanları inkişaf etdirməyə və qurmağa kömək etməklə əməkdaşlığı bir daha müzakirə etməlidir. Bununla belə, bir çox Avropa ölkələri ”Sem dayı”nı qitədə qalmağa inandırmaq üçün əlindən gələni edəcəyinə görə, Vaşinqton bunun gələcəkdə sadiq qalacağı yeganə model olduğunu açıq şəkildə bildirməli olacaq. NATO-nun avropalı üzvləri böyük ölçüdə təkbaşına olacaqlarına həqiqətən inanmayana qədər, onların lazımi addımları atmaq əzmi yarımçıq qalacaq və onların vədlərindən dönmələri gözlənilə bilər.

Rəhbərliyi dövründə gurultusu ilə müttəfiqlərini lazımsız yerə qıcıqlandıran Donald Trampdan fərqli olaraq, onun varisi Co Bayden prosesi başlamaq üçün yaxşı vəziyyətdədir. O, xüsusi bir atlantikçi kimi layiqli reputasiyaya malikdir, ona görə də onun yeni əmək bölgüsünə narazılıq edənlər olmayacaq. Onun və komandasının avropalı tərəfdaşlarına belə bir addımın tərəflərin hər birinin uzunmüddətli maraqlarına uyğun olduğunu söyləmək üçün unikal imkanları var. Bayden və onun kabinetinin bu ağır işi başladacağını gözləmək də hələlik fərziyyədir. Amma bəzi səbəblər və gözləntilər NATO-nun gələcəyi barədə düşünməyin vacibliyini diqtə edir. NATO ölübsə, yerində yeni hərbi blok yaradılmalıdır, amma qarşı tərəfin - Çin-Rusiya tandeminin hansı bloka ”hamilə” olduğunu bilən varmı?

**V.VƏLİYEV**

# Heydər Əliyev - dövlətçilik irsimiz üçün müstəsna xəzinə!



***Hər bir xalqın taleyində, onun həyatında müstəsna rol oynayan, tarixin ən çətin sınaqlarında mayak kimi gələcəyə parlaq işıq saçan tarixi şəxsiyyətlər olub. Bu tarixi şəxsiyyətlər həm də bir xalqın qürur salnaməsidir. Onlar heç vaxt unudulmur, işıqlı ideyaları bütöv bir xalqın nicat yolu olur. Ulu öndər Heydər Əliyev də bu mənada Azərbaycan xalqı üçün, müasir Azərbaycan dövləti üçün, ən əsas da gələcək AZƏRBAYCANLILAR üçün əsl işıqlı mayakdır. Bu gün müzəffər Ali Baş Komandan, doğma Qarabağı düz 30 ildən sonra düşmən işğalından azad edib doğma Azərbaycana birləşdirən, bununla da adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdıran Prezident İlham Əliyev, həm Ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi, həm də böyük tarixi missiyanı əzəmətli zəfərlə taclandırdı.***

## Heydər Əliyev: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır"

Heç şübhəsiz, tarixən hər bir müstəqil dövlətin yaranmasını, inkişafını, möhkəmlənməsini və davamlı olmasını digər tarixi-siyasi səbəblərlə yanaşı, xalqı bu dövlətin ətrafında birləşdirəcək güclü ideyanın olması da şərtləndirir. Əgər hər hansı siyasi-ictimai, yaxud təbiət hadisələri qısa müddətdə insanları bir yerə toplayırsa, fərdin enerjisini kütlənin, bəzən də millətin enerjisinə çevirə bilirsə, həmin faktor aradan qalxdıqdan sonra toplumu birləşdirən yeni ideya olmasa, yaranmış birlik öz-özünə dağılacaq, bəzi hallarda isə yeni dağıntılara səbəb olacaq.

Müstəqil dövlətçiliyimizin tarixinə nəzər salaq: 1988-1990-cı illərdə milyonlarla insanı günlərlə bəzən ac-susuz, şaxtada, qara-yağışa baxmadan Azadlıq meydanına toplayan nə idi? Bu sualın yalnız bir cavabı var: azadlıq və müstəqillik arzusu. Bu arzu ideyaya çevrilə bildimi? Milləti uzun illər öz ətrafında birləşdirəcək, onun ölçüyəgəlməz gücə malik enerjisini vahid məqsədə yönəltmək mümkün oldumu? Niyə 1990-cı ilin yanvarında tankın-topun, avtomatın-pulemyotun qarşısına əliyalın çıxan insanlar müstəqillik əldə ediləndən bir az sonra - 1993-cü ilin iyununda birləşib qiyamçı dəstəyə qarşı çıxmadılar? Cəmi bir il sonra isə təxminən eyni situasiyada, 1994-cü ilin 4 oktyabr gecəsində ulu öndər Heydər Əliyevin çağırışı ilə yüz minlərlə insan Prezident sarayının ətrafına toplaşdı. Bir il öncə saraya yaxın getməyən toplumun öz Prezidentini və müstəqil dövlətini müdafiə etməsinin səbəbi nə idi? Heç şübhəsiz ki, burada şəxsiyyətin rolu danılmazdır, amma fikrimcə, insanları təhlükə anında birləşdirən ən başlıca səbəb ideya idi, milli ideya, milli dövləti və həm də milli "mən"ini qoruyub saxlamağın vacibliyini fərdə anlatmış böyük toplayıcı gücə malik dəyər...

Böyük dövlətçilik təcrübəsi və istedadına malik ümummilli lider Heydər Əliyev aydın dərk edirdi ki, gənc və gücsüz, təcrübəsiz və müharibə aparan müstəqil Azərbaycanı bir dövlət kimi qurmaq, ayağa qaldırmaq, yaşatmaq, möhkəmləndirmək və qüdrətləndirmək üçün bütün vətəndaşların ümumi bir məqsəd ətrafında birləşməsi gərəkdir. Artıq özünü bir millət kimi dərk etmiş, azadlığın və müstəqilliyin şirin tamını dadmış xalqı öz dövləti ətrafında yalnız milli ideya birləşdirə bilərdi. Xüsusən Azərbaycan kimi müstəqilliyini yeni qazanmış, bir ictimai-siyasi quruluşdan yenisinə keçən, iqtisadi-hüquqi əsasları tamamilə başqa təməllər üzərində qurulacaq dövləti möhkəmləndirmək üçün vətəndaşların bir məqsəd, bir amal uğrunda birləşməsini təmin edən mütərəqqi milli ideyanın olması çox vacib idi. Bu milli ideyanın yaranması və inkişafı ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafında tarixi xidmətləridir.

Heydər Əliyevin irəli sürdüyü milli ideya Azərbaycanın bütün vətəndaşlarını, həm də təkcə Azərbaycan vətəndaşlarını deyil, dünyanın hər yerində yaşayan azərbaycanlıları və Azərbaycana bağlı insanları bir məqsəd - müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi və inkişafına xidmət etmək ətrafında birləşdirə bildi. Ümummilli lider Heydər Əliyev deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətindən qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

## Heydər Əliyevin azərbaycançılıq ideyası - milli-mənəvi dəyərlərə sadiqlik!

Ümummilli lider Heydər Əliyev banisi və qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümü ilə əlaqədar keçirilən təntənəli yığıncaqda milli ideologiyanın təyinatı və tərkib hissələri barədə öz konseptual fikirlərini çox gözəl ifadə edib: "Bizim həm xarici siyasətdə, həm daxili siyasətdə, həm ictimai-siyasi sahədə gördüyümüz işlər milli ideologiyanın üzərində qurulur. Bu milli ideologiya nədən ibarətdir? Birincisi, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə də hər bir vətəndaş vətənpərvərlik hissi ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi həyatından - hər şeydən üstün tutsun".

Heydər Əliyevin azərbaycançılıq ideyasının ikinci qanadı milli-mənəvi dəyərlərə sadiqlikdir. Ulu öndər milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını, gələcək nəsillərə çatdırılmasını bir vəzifə olaraq qarşıya qoyurdu. Heydər Əliyev öyrədirdi ki, əgər xalq öz müstəqilliyini qorumaq, gələcəyini qurmaq istəyirsə, milli-mənəvi dəyərlərinə söykənməlidir. Milli-mənəvi dəyərlərinə hörmət etməyən, bir millət olaraq öz varlığını ifadə edə bilməyən xalqın müstəqil dövləti uzunömürlü ola bilməz.

## Heydər Əliyev: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir"

Əsasən də milli mənəvi dəyərlərimiz ümummilli lider Heydər Əliyev tərəfindən həm onun rəhbərliyinin sovet dönəmində, həm də müstəqillik dövründə yüksək qiymətləndirilmiş, həmişə uca tutulmuşdur. Heydər Əliyev xalqın mənəvi yaddaşının qorunması və zənginləşməsi üçün fərman və sərəncamlar vermiş, əməli işlər görmüşdür.

Dilimizin son 40-50 ildəki inkişafı, onun dövlət dili, hüquq, siyasət, elm, diplomatiya dili səviyyəsinə qalxması ümummilli lider Heydər Əliyevin ana dilimizə qayğısı və xidmətləri ilə bağlıdır. Məhz Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması müddəası salındı. İndi bu sözləri yazmaq və söyləmək çox asandır, o zaman isə Ümumittifaq dövlətinin rus şovinizmi basqısı altında bu işləri görmək böyük cəsarət və siyasi müdriklik tələb edirdi. Dilin xalqın və dövlətin həyatında müstəsna əhəmiyyətini vurğulayan Heydər Əliyev deyirdi: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".

## Heydər Əliyev irsini tarixi zəfərlərlə taclandıran müzəffər lider!

2003-cü il oktyabrın 1-də Ulu Öndər Azərbaycan xalqına müraciətində möhtərəm Prezidentimiz İlham Əliyevi nəzərdə tutub demişdi: "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək".

Həmin il ölkəmizdə keçirilən Prezident seçkilərində xalqımız birmənalı olaraq Ümummilli Liderimizin həyat və siyasət məktəbinin yetirməsinə səs verdi. Həmin vaxtdan bu günə qədər xalqın, millətin gələcəyi üçün böyük miqyasda işlər görülüb, Azərbaycanda müstəqilliyin dayaqları möhkəmləndirilib və uzunmüddətli siyasi sabitlik, davamlı iqtisadi inkişaf təmin edilib. Dövlətin iqtisadi uğurları ordu quruculuğunun da inkişaf etdirilməsinə zəmin yaradıb. Azərbaycan Prezidentinin siyasi kursunun ən başlıca istiqamətlərindən biri məhz ordunun hərbi qüdrətinin artırılmasıdır. Məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, bizim ordu regionun ən qüdrətli ordusudur.

2020- ci il sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu real faktordur ki, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Prezident İlham Əliyev həyata keçirdiyi uğurlu siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüz birmənalı olaraq təsdiq edildi.

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kapitulyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin əsarətindən qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə düşmən əsarətində inləyən doğma vətən torpaqlarını işğaldan azad etdi. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, sonsuz VƏTƏN SEVGİSİ ilə də qazanmaq olar.

Şuşa qalasının alınması əməliyyatı isə 44 günlük Zəfər müharibəsində xüsusi yer tutur. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutatacaq: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir".

Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Qüdrətli Ali baş Komandan İlham Əliyev "Xoşbəxtəm ki ata vəsiyyətini yerinə yetirdim"-deyə kövrək hisslərini və duyğularını azərbaycan xalqı ilə bölüşdü.

Bu gün Azərbaycan Prezidentinin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Ulu Öndər Heydər Əliyev ideyaları möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Heydər Əliyev irsi qalib gəlir, Heydər Əliyev irsi ƏBƏDİYAŞARDIR!

**Mətləb Salahov**

# Xalq öz igid oğullarını unutmur!



*Respublikamızın hər yerində Vətən yolunda canlarını fəda edən şəhidlərimiz dərin hörmət və ehtiramla yad edilirlər*

## Səbail

Respublikamızın hər yerində Vətən yolunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsi xalqımız tərəfindən daim əziz tutulur, dərin hörmət və ehtiramla yad edilirlər. Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vuqar Zeynalov, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədr müavini Faiq Qurbanov, RİHB-nın müavinləri, RİHBA-nın məsul əməkdaşları, şəhidlərin ailə üzvləri, döyüş yoldaşları və rayon ictimaiyyətinin nümayəndələri tərəfindən şəhidimizin evinin önündəki barelyefi ziyarət edilərək xatirəsi ehtiramla anılıb, üzərinə gül dəstələri qoyulub və ruhuna dualar oxunub. S?A xəbər verir ki, çıxış edən Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vuqar Zeynalov, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədr müavini Faiq Qurbanov Vətən yolunda canlarını fəda edən şəhidlərimizin xalqımız tərəfindən daim qəlblərdə yaşayacağını, onları heç bir zaman unutmayacağını, dərin hörmət və ehtiramla yad edəcəyini, qeyd ediblər.





O cümlədən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizdə şəhidlərə dövlət səviyyəsində verilən yüksək qiymətdən, şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışmış, hər bir şəhid ailəsinin bundan sonra da dövlət qayğısı ilə əhatə olunacağını bildirmişlər. Şəhidin ailə üzvləri hər zaman onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

## Nizami

Nizami rayonunda da Vətən müharibəsi şəhidi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olmuş Vüqar İnşallah oğlu Cəfərovun anım günündə əziz xatirəsi yad olunub. Bununla əlaqədar Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini İldırım Mehdiyev, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, Nizami bələdiyyələrinin sədri Vüqar Quliyev, rayonun güc strukturlarının rəhbərləri və ictimaiyyət nümayəndələri II Fəxri xiyabanda şəhidin məzarını ziyarət edib, önünə əklil qoyub, ruhuna dualar oxuyublar.Sonra şəhidin yaşamış olduğu binanın önündə xatirəsinə inşa edilmiş bulaq kompleksinin açılış mərasimi keçirilib.

Mərasimdə çıxış edən Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini İldırım Mehdiyev, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov və başqaları Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən danışıblar.Qeyd ediblər ki, 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun yağı düşmən üzərində Zəfəri Azərbaycan tarixinə qızıl hərflərlə əbədi olaraq həkk olunub. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizi dərin ehtiramla yad edildiyi, onların əziz xatirələrinin daim uca tutulduğu diqqətə çatdırılıb.Şəhidin atası İnşallah Cəfərov çıxış edərək onunla bağlı xatirələrini bölüşüb. Həmçinin, şəhidlərin ailə üzvlərinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildiriblər.Çıxışlardan sonra bulağın açılışı olub, mərasim iştirakçıları abidənin önünə gül dəstələri düzüblər. Mərasimdə şəhidin oxuduğu 70 saylı məktəb-liseyin şagirdlərinin hazırladıqları vətənpərvərlik şeirləri səsləndirilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Vüqar Cəfərov 2020-ci il oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Prezident İlham Əliyevin sərəncamlarına əsasən Vüqar Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Gəncə

YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, millət vəkilləri Pərvin Kərimzadə və Müşfiq Cəfərov, təşkilatın əməkdaşları, partiya fəalları 5 oktyabr - Beynəlxalq Müəllimlər Günündə Gəncənin 44 günlük Vətən müharibəsində Vətənimizin müdafiəsi uğrunda öz canından keçən şəhid müəllimlər Rəşad Məmmədov və Rabil İsmayılovun məzarını ziyarət edib, önünə gül-çiçək dəstələri düzüb, ruhuna dualar oxuyublar.Şəhidlərin məzarları önündə Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərdən, qəhrəmanlıqları ilə tarix yazan, adını tarixə həkk etdirən müəllimlərin döyüş şücaətlərindən, qısa, lakin mənalı, şərəfli həyat yolundan danışılıb. Bildirilib ki, şagirdlərinin sevimli müəllimləri olan Rəşad Məmmədov və Rabil İsmayılov fədakarlıqları ilə gələcək nəslə qəhrəmanlıq dərsi keçiblər. Şəhidlik zirvəsinə yüksələn müəllimlərimizin əziz xatirəsi yaddaşlardan heç vaxt silinməyəcək.Qeyd edək ki, Rabil İsmayılov Gəncə şəhər Mikayıl Müşfiq adına 14 nömrəli tam orta məktəbin müəllimi idi. 2017-ci ildə müəllimlərin işə qəbulu imtahanlarında 55 bal toplayaraq işə qəbul olunmuşdu. Rəşad İsmayılov Gəncə şəhəri M.Ş.Vazeh adına 16 nömrəli tam orta məktəbdə işləyirdi. 2018-ci ildə müəllimlərin işə qəbulu imtahanında 51 bal toplamışdı. Allah şəhidlərimizə rəhmət eləsin!



**Dünən hər birimiz üçün doğma, kainatın gələcəyi üçün işıqlı mayak olan müəllimlərimizin günü idi. 5 oktyabr Beynəlxalq Müəllimlər Günü həm də qəlbində müəllim sevgisi olan hər birimizin bayramıdır. Zəka bayramı, bilik bayramı...**

# Ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi - Azərbaycan MÜƏLLİMİ



Körpə könüllərdə məşəl yandıran, onu sabahın qurucusu və yaradıcısına çevirən müəllimdir. Bu cür bir peşənin sahibi olan insanın qəlbində yanan işığın şöləsi ətrafa yayıldıqca onun nurunun fövqündə bu dünya böyük bir insanlığa xidmət edir. Ali dəyərlərə, bəşəri dəyərlərə, sülhə, əmin-amanlığa, gözəl zəkaya, xeyirxahlığa, ədalətə, birliyə, ziyalılığa və şəxsiyyətə. Bir sözlə, arzuladığımız bir cəmiyyətə. Toxum kimi səpdikləri boy atdıqca Vətən nurlanır, inkişaf edir. Suvardığı torpaqdan boy verənlər Vətən sərhədinə bir çəpər olur. Belə bir müqəddəs peşə sahibinə ən gözəl fikirlərimizi ünvanlasaq, yenə də azdır. Xalq şairi Bəxtiyar Vahabzadənin dili ilə desək:

**Şagirdin sayıdır dövlətin, varın**
**Bilməz bu qazancı, bilməz hər naşı.**
**Sinifdən sinifə adlayanların**
**Yaşında yaşayır müəllim yaşı.**

Bəli, müəllim ustad, öyrədən, həyata vəsiqə verəndir. "Hələ yazılmamış, hələ qırışsız, hamar beyinləri cilalandıran" müəllimdir! Tez durub gec yatan, bu gün sabahımızı yaradan müəllim. Hikmət dolu bu ifadələrdə dünyanın bənzərsiz və əvəzsiz bir peşə sahibinin - müəllimin sanki fəlsəfi anlamı öz əksini tapıb. "Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edərək Azərbaycan təhsilinin ənənələrinə sadiq qalacağıma, keyfiyyətli təhsil xidməti göstərəcəyimə, peşəkar fəaliyyət zamanı qeyri-etik davranışın hər hansı bir formasına yol verməyəcəyimə, həmkarlarım, təhsilalanlar, valideynlər və digər şəxslərlə münasibətləri hörmət, şərəf və ləyaqət əsasında quracağıma, müəllim adını və şərəfini uca tutacağıma and içirəm."

Bu Azərbaycan müəlliminin təntənəli şəkildə Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla içdiyi anddır. O and ki, gələcək illərində onu hər an məsuliyyətli olmağa, istənilən bir hərəkətinə cavabdeh olmağa səsləyir. Azərbaycana layiqli, vətənpərvər, savadlı gənclərin yetişməsində müəllimin payı müstəsnadır. Bu gün müəllim andı içən hər kəs müstəqil bir dövlətin tələblərinə cavab verən nəsil yetişdirir və onları cəmiyyətə layiqli vətəndaş kimi yetirir. Bu gün 44 günlük Vətən müharibəsində şəhid olan, qazi olan, ümumilikdə iştirakçı olan hər kəs on bir il parta arxasında müəllimlərdən dərs almış, Azərbaycan tarixini öyrənmişdilər. Hər il bir sinifdən o biri sinfə adlayan şagirdlər 20 Yanvar faciəsini, Xocalı soyqırımını, Birinci Qarabağ savaşını dərindən öyrənərək nə vaxtsa torpaqlarımızın işğaldan azad olunmasında iştirakçı olacaqlarına əmin idilər. Əli silahlı səngərdə düşmənə dərs verəcəkdilər. Gün gəldi, zaman yetişdi Müəllimlərindən aldığı vətənpərvərlik dərsini döyüş meydanında göstərdilər. Bəli, bu gün biz belə müəllimlərimizlə fəxr edirik. Vətən eşqi ilə yanan və yaşayan. Bu eşqi yüzlərlə, minlərlə şagirdlərinə əxz edən müəllimlər. Adınız şərəflidir. İlk dərs gününü "Qarabağ Azərbaycandır!" mövzusu ilə başlayan Azərbaycan müəllimi üçün bundan böyük qürurverici nə ola bilər? Bu gün yetişən məktəblilər şəxsiyyət olaraq formalaşır. Düşmənə dərs verən Azərbaycan ordusunun sıralarında döyüşkən ruhlu, vətəni qorumaq qüdrətində olan biləcək gənci kimi. Zəfər tarixin yaşayan məktəbli bu tariximizdən gələcək nəsillərə söz açanlardan olacaqlar. Ona görə də onlara parta arxasında ikən böyük, ali sevgi ilə yoğrulmuş şəhiidlərimizi keçdiyi yol, qəhrəmanlıq səhifələrinin əsas məqamları aşılanır. öyrənilir.

**Məktəbi hər şeydən üstün millətin**
**Hər yerdə, hər işdə zəfəri-haqdır.**

Keçən gün qeyd etdiyimiz 5 oktyabr dünya ictimaiyyətinin məhəbbətlə qarşıladığı və daim qəlbində gəzdirdiyi müəllimlərin peşə bayramı - Beynəlxalq Müəllimlər Günüdür. Artıq müəllimlərimiz ikinci ildir ki, Qalib ölkənin müəllimi kimi müəllimlər günü qeyd edir. Xatırladaq ki, Vətən müharibəsi başlayanda Vətən, deyib cəbhəyə yol düşən müəllimlərimiz də az olmadı. Bu gün müəllimlər günündə onların adını vurğulamaq, əlbəttə ki. borcumuzdur. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmanlıq göstərərək şəhid olan müəllimlərimiz Vüqar Vəliyev, Famil Əhmədzadə, Rəşad Məmmədov, Elvin İmaməliyev, Etiram Hüseynli, Qoşqar Ömərov, Vidadi İsrafilov, Elxan Rzayev, Xalid Nəciyev, Elgün Quliyev, Tural Rəhimov, Rəvan Lətifov, Əvdil Quliyev, Rabil İsmayılov, Emil Qurbanov və Kənan Müzəffərli. Bu adlar əbədi olaraq tariximizə yazılıb. Vaxtilə parta arxasında dərs alan bu müəllimlər zaman yetişir ki, milli ruhlu, gələcəyin vətənpərvər ruhlu övladlarını yetişdirir və tale elə gətirir ki, cəbhədə döyüşçü kimi bir meydanda vuruşurlar. Bu gün həmin oğullardan bir haqqında söz açmağı özümüzə borc bilirik. Şuşadan keçən döyüş yolu Rəvan Lətifovun taleyinə yazılır. Adı şəhidlik zirvəsinə yüksələn vətən oğlu. Vətən müharibəsi başlayanda Sincan kənd tam orta məktəbində təşkilatçı-müavin vəzifəsində çalışıb. Sentyabrın 29-da Vətən müharibəsində iştirak etmək üçün çağırış vərəqəsi alıb və məktəbi döyüş meydanı ilə əvəzləyib. Döyüş meydanda da öz sözünü deyib. Onun döyüş yolu Şuşaya qədər gedib çıxıb. Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib və qəhrəmancasına şəhid olub. Şəhadət xəbərini ailəsi noyabrın 16-da alıb və o, Xaçmaz kəndindəki "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Müəllimlər Günündə qürurla müəllimlərdən söz açırıq. O müəllimlərdən ki, həm müəllim kimi vətənə layiq övladlar yetişdirib, həm də zamanı yetişəndə silaha sarılıb. Vətəndaş müəllim! Qarşınızda baş əyirik!!!

**Məktəbi hər şeydən üstün millətin**
**Hər yerdə, hər işdə zəfəri-haqdır.**

## "HƏR BİRİMİZDƏ MÜƏLLİMİN HƏRARƏTLİ QƏLBİNİN BİR ZƏRRƏCİYİ VAR"

Dünən böyük sevgi və qürurla qeyd etdiyimiz 5 oktyabr tarixinin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO tərəfindən verilib. Təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlər peşə bayramlarını qeyd edirlər. Bu bayramın beynəlxalq səviyyədə keçirilməsi, həqiqətən də, böyük sevginin bəşəri təcəssümünü özündə ehtiva edir. Ağıl və elm kimi dünyaya məxsus olan açarın milyonlarla insanlara əxzində, məhz müəllim qüdrəti, müəllim əməyi əvəzsiz və sonsuzdur. Odur ki, bəşəriyyət formalaşdığı bir zamandan müəllimə olan münasibət fərqli məcrada özünü göstərə bilmişdir. Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir. Bu cür məfhumları özündə cəmləşdirən peşə sahibinin peşə bayramının respublika səviyyəsində qeyd olunması ona olan qiymətin bir ölçüsüdür. Dünyanın bütün peşə sahiblərini həyata hazırlayan elə müəllimdir. Bu baxımdan, müəllimlik peşəsi heç bir peşə ilə müqayisəyə gəlməyən bir nümunədir.

Dünyanın ən müdrik simaları, liderləri, böyük şəxsiyyətləri, beynəlxalq aləmin hegemon qüvvələri bu ad qarşısında adilaşir, öyrənməyə və nəyisə əxz etməyə çalışırlar. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram" - deyən Ümummilli Lider Heydər Əliyev, Azərbaycana rəhbərlik etdiyi bütün illərdə, müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb.

## BİR MÜƏLLİMİN GÜCÜ BİR ORDUYA BƏRABƏRDİR

Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır. Dünyanın dərk edilməsi əlmdə olduğundan, müəllimə bütün zamanlarda ehtiyac duyulur. Həyatı, yazıb-yaratmağı öyrədən müəlliminə mənən borclu olduğunu dərk edərək, onun vücudu qarşısında səcdə edir. Bir müəllimin gücü bir ordu ilə müqayisə oluna bilər. Hər fərdin cəmiyyətdə formalaşması müəllim əməyi, təxəyyülü, zəhməti və illəri hesabına başa gəlir. Cəmiyyətə savadlı, elmi bilikli gənclər ordusunu yetişdirən müəllim onu şəxsiyyət və vətəndaş olaraq cəmiyyətə hazırlayır. Elm və savadla bahəm, bu dəyərlərin aşılanması əsas şərt olduğundan, hər bir müəllim ünsiyyətdə olduğu şagirdlərinə bu keyfiyyətləri aşılamaq üçün öz peşəkarlığını ortaya qoyur. Müəllim pedaqoq və psixoloqdur. Müəllim özünü tərbiyə edib, özündə kamil insani sifətləri aşılayıbsa, demək, müəllim adı ona yaraşır. Özünə aşıladığı bu sifətləri mütləq cəmiyyətə də aşılayacaq. Belə bir cəmiyyətdə missiya daşıyıcısı olan müəllimə yetirilən diqqət də yetərincədir.

Bu gün sivil ölkələr sırasında Azərbaycanı nüfuzlu dövlət kimi görürüksə, demək, dövlətin güclü silahı olan elmi inkişafdadır. Ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu sahənin daha da inkişafına yönəlmişdir. İyirmi birinci yüzillik elm və informasiya əsri olduğundan, sürətli inkişafda Azərbaycan da təhsilini dünya səviyyəsində qurur. Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb.

Dövlət başçısı İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayır. Belə ki, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı" bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini təmin edib. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə və yüksək nəticələrin qazanılmasına xidmət edir.

Azərbaycanda təhsilə verilən qiymət və diqqət, artıq təhsilin keyfiyyətcə yeniləşməsinə gətirib çıxarıb. Gələcəyin inkişafı onun təhsilindən başlayır. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir.

Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilməlidir. Müəllim hər bir yeniliyi izləyərək, onu tətbiq etməlidir. Müəllim savadı və dünyagörüşü ilə böyük bir nəsli tərbiyə edir. Bütün dünyada gedən prosesləri izləyir və ölkəmiz üçün vacib olan məsələləri şagirdlərə çatdırır. Bu günün məktəblisi, gələcəyin əsgəri və vətəndaşıdır. Bu prizmadan çıxış edərək, yüksək bilikli şagird yetişdirməklə, müəllim cəmiyyətə sağlam ruhlu vətəndaş hazırlamalıdır. Təməli məktəb partaları arxasında qoyulan şagirdlər, məhz bu gün müəllimin böyük zəhməti sayəsində inkişaf edir. Xalqımızın milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunur, böyük hörmətlə və yüksək ehtiramla çəkilir. Müəllimlər gününüz mübarək, əziz müəllimlər!

***Nəzakət ƏLƏDDİNQIZI***



# Heç vaxt batmayacaq, qürub etməyəcək əbədi Günəş!

***Azərbaycan xalqının xoşbəxtliyidir ki, Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizi yaratmış və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir. O, dünya siyasətinə təsir etmək gücündə olan və qlobal miqyasda təhlillər aparmağı bacaran bir dühа, eləcə də dahi siyasətçi idi. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Liderimiz Heydər Əliyevin xidmətləridir.***

*Xalqımız qarşıya çıxan çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü*

Əbəs deyil ki, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq və qeyri-peşəkar idarəetmə dövrü kimi xatırlanır. Dövlətin suveren mövcudluğuna təhdid yaradan bütün amillər həmin dövrdə dövlətə səriştəsiz və qeyri-peşəkar şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən həmin dövrün iqtidarı xalq qarşısında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Heydər Əliyevin simasında görürdü. Dövlətçilik anlayışından bixəbər olan və hərbi birləşmələri əslində öz məqsədləri üçün istifadə edən ayrı-ayrı şəxslərin hədələrindən qorxub gizlənmiş və bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC-Müsavat iqtidarının özü də xilas üçün sonda Heydər Əliyevdən imdad istədi.

### 1993-cü il oktyabrın 3-nə təyin edilmiş Prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi

Azərbaycan xalqı qanı və canı bahasına əldə etdiyi müstəqilliyin qorunması üçün bu müstəqilliyin əldə olunmasına ən çox töhfə vermiş və onu qoruya biləcək əvəzsiz lideri Heydər Əliyevi dəvət etdi. Hələ 1992-ci ilin oktyabrında Azərbaycanın "91-lər" adlanan ziyalılar qrupu Heydər Əliyevə hakimiyyətə qayıdışı üçün müraciət etmişdilər. 1993-cü il iyunun 9-da Heydər Əliyev, nəhayət, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib Bakıya gəldi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq Gəncəyə yollandı və bölgədə davam edən qiyamın qarşısını aldı.

1993-cü il oktyabrın 3-nə təyin edilmiş Prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi. Xalq böyük səs çoxluğu ilə öz seçimini etdi və Ulu Öndər Heydər Əliyevi prezident seçdi. Həmin seçimlə bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu. Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı.

Ulu Öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətlənmişdir. Ümummilli Lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, ölkədəki qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

### Müstəqilliyin ilk illərində xalqımız qarşıya çıxan çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü

Xalqın məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi yaşayacaqdır. Azərbaycan xalqının tarixində taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, parlaq şəxsiyyət Heydər Əliyevin xüsusi rolu vardır. Müstəqilliyin ilk illərində xalqımız qarşıya çıxan çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü. Ümummilli Lider Heydər Əliyev öz xilaskarlıq missiyasının öhdəsindən yüksək səviyyədə gəlmişdir.

Ulu Öndər Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Ulu Öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, zəngin təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Azərbaycanın nicatı Heydər Əliyev ideyalarındadır. Bu fikrin ən sadə izahı kimi müstəqilliyin ilk illərində xalqımızın başına gətirilən müsibətləri bir daha yada salmaq kifayətdir. Əgər o vaxt sağlam düşüncənin səsinə qulaq asıb, böyük siyasi xadimi respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycan qanlı faciələri görməz, xəyanətlərin qurbanı olmaz, ölkə ərazisinin 20 faizi işğal edilməz, dövlət müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməzdi. Bütün bunlar ona görə baş verirdi ki, əvvəlcə Vəzirov-Mütəllibov rejimi, sonra isə Xalq Cəbhəsi-Müsavat cütlüyü Azərbaycanı Heydər Əliyev yolundan döndərməyə çalışır, bu yolun alternativi olmadığını başa düşmək istəmirdilər. Nəticədə ölkəni uçuruma apardılar. Azərbaycanı fəlakətin bir addımlığında qoyub qaçdılar.

### Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissələrindən biridir

Artıq bu gün Azərbaycan Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. O da sirr deyil ki, Ulu Öndər Heydər Əliyev irsi davamlı inkişafın təminatıdır. Heydər Əliyevin siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, habelə sosial-iqtisadi tərəqqiyə nail olunması kimi taleyüklü məsələlərdə uğurla sınaqdan çıxmışdır. Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Heydər Əliyev müzakirə olunan məsələnin mahiyyətini açmağı, mövzunu milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyi ustalıqla bacarırdı. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşıya qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında və həmsöhbətinə təsir etmə gücündə idi. Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissələrindən biridir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxslər yox, eyni zamanda, dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrildi.



*Muxtar Nağıyev,*
*YAP Səbail rayon təşkilatının sədri*

### Zəfər yolunun davamı!

Bu gün Azərbaycan xalqı Heydər Əliyev ideyalarına və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasətinə etimadı, sonsuz məhəbbəti, sədaqəti və ölkəmizin inkişafına dəstəyi ilə nümayiş etdirir. Azərbaycan dünyanın iqtisadi cəhətdən inkişaf edən dövlətlərindən biri kimi tanınır, ən mühüm sosial islahatlar həyata keçirən ölkə kimi tarix yazır. Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi və davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən hərtərəfli düşünülmüş,balanslaşdırılmış xarici siyasət, 44 gün davam edən Vətən müharibəsində Şanlı Ordumuzun parlaq qələbəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi, 19 il ərzində ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, sosial-iqtisadi sahədə, eyni zamanda beynəlxalq əməkdaşlıq sahəsində əldə olunan uğurlar nəticəsində, Azərbaycan dünyaya Günəş kimi doğmuşdur. Bir vaxtlar Ulu Öndər Heydər Əliyev demişdi "Vaxt gələcək Azərbaycan dünyaya Günəş kimi doğacaq" Bu günlərimiz məhz həmin günlərdir. Azərbaycan dünyaya Günəş kimi doğmuşdur və bu Günəş heç vaxt batmayacaq, qürub etməyəcək!

# Paşinyançı Armen Qriqoryan Rusiyanı ABŞ-a nəyə və necə satdı?









*Ermənistan Rusiyaya xəyanət etməklə, Aİ-yə arxa çevirməklə və Azərbaycanla Türkiyəni hədəfə alaraq ABŞ-a şikayət etməklə özünə gor qazdı və qalıb sadəcə həmin gora girməyi*




Bakı İrəvana sonuncu şans vermək qərarını verib. Yalnız bir şans ki, bu şans sülh dialoqunun aparılması, sülhün əldə edilməsi üçün mümkün imkanlarını təqdim etməsidir. Və ən əsası, Azərbaycan və Ermənistan XİN başçılarının sonuncu görüşləri də ölkələr arasında münasibətlərin açıq sahəyə çıxması, yaxud aydınlaşdırılması üçün sonuncu imkan oldu. Artıq mənzərə belədir: əgər İrəvan yenə də gah nala, gah da mıxa döyəcləməyə davam edəcəksə bu zaman Bakının onu yola gətirməsi üçün kifayət qədər geniş vasitə spektorları mövcuddur. Bütün bunlar öz yerində...

Ancaq bu günlərdə Ermənistanın Təhlükəsizlik Şurasının rəhbəri Armen Qriqoryanın Brüsseldə - NATO-nun mənzil-qərargahında səsləndirdiyi anti-Rusiya, anti-Türkiyə və eləcə də anti-Azərbaycan xarakterli mesajları isə artıq atalar misalımız kontekstində belə bir nəticəyə gəlməyə zəmin yaradır: keçinin buynuzu gicişəndə onu çobanın çubuğuna sürtər...

**Sən demə və guya erməni xalqı Avropanın xristian sivilizasiyasının "tərkib hissəsidir" və Ermənistan özünü birmənalı şəkildə Qərbdə görür...**

Beləliklə, hər şey get-gedə üzə çıxır və İrəvan öz ağasını dəyişmək qərarına gəldiyini açıq qaydada bəyan edir. Ermənistan birdən-birə "Üç Boqatır"ın altından sivişərək çıxıb və Sem dayının altına yıxılıb. Armen Qriqoryanın oktyabrın 3-də NATO-nun mənzil qərargahındakı çıxışına əslində başqa cür don geyindirmək də olmur. Əlbəttə ki, onun dediklərinin təhlilini apararkən həmin reallıq özünü daha qabarıq formada göstərməkdədir

Misal üçün, o Azərbaycanın ədalətli və haqlı tələb və şərtlərini "aqressiya" kimi göstərir və bunu Rusiyanın Ukraynaya qarşı apardığı siyasətinə bənzətməyə cəhd edir. Üstəlik onu da bəyan edir ki, bu iki bir-birindən uzaq regionlarda baş verənlər arasında "bağlantı" var (?!) Bu sərsəm paşinyaçıya görə Qərb Ukraynada demokratik dünyanın yaradılması uğrunda savaş aparır və bu mənada Azərbaycanla Ermənistan arasındakı münaqişə əslində "demokratiya ilə avtokratiya arasında qarşıdurmadır" (???!!!)

Hələ bu da son deyil. Qriqoryan öz həmsöhbətləri ilə müzakirə apararkən deyib ki, sən demə və guya erməni xalqı Avropanın xristian sivilizasiyasının "tərkib hissəsidir" və Ermənistan özünü birmənalı şəkildə Qərbdə görür...

Yenə də xristianlıq amilinin qabardılması və yenə də özünü zorla kimlərinsə altına yıxma vasitəsi və buna başqa cür ad da vermək olmur! Lakin...

**Yeri gəlmişkən, hələ 44 günlük müharibə zamanı Paşinyan haqqında irəli sürülən ən gözəl ifadə yada düşür - DABANYALAYAN! Və bu gün Armen Qriqoryanın mövcud fəaliyyəti ümumilikdə Paşinyan rejiminin dabanyalayanlıq siyasətinin tərkib hissəsidir desək, əsla yanılmarıq!**

***Bir tərəfdən "xristian", digər tərəfdən isə seksual azlıqların müdafiəçisi (?!)***

Lakin burada ən istehza doğuran və əslində nəinki xristianlıqda, ümumiyyətlə heç bir səmavi dinlərdə qəbul edilməyən, əksinə inkar olunan daha bir ifadəyə diqqət yetirək. Ermənistanın Təhlükəsizlik Şurasının sədri NATO-nun mənzil qərargahında deyib. SİTAT: "Ermənistan hakimiyyəti seksual azlıqların hüquqlarının qorunması yönündə ayrıca və xüsusi diqqət göstərir. Lakin erməni cəmiyyətinin mühafizəkarlığı və kilsənin böyük avtoritetə malik olması səbəbindən həmin istiqamətdəki proses aramla gedir"...

Sözügedən görüş əsnasında Qriqoryan amerikalılara daha xoş görünmək üçün öz xilaslarını yalnız ABŞ-da gördüklərini bildirib və bu vasitə ilə Amerikanın Azərbaycanın sözdə "aqressiyasına" qarşı daha sürətli addımlar atmasını istəyib, yaxud daha doğrusu yalvarıb. Əlavə olaraq isə Avropa İttifaqının və bu təşkilatın prezidenti Şarl Mişelin də bostanına daş atmağı unutmayıb. SİTAT: "Nə Rusiya, nə Avropa İttifaqı Ermənistan üçün Amerikanı əvəzləyə bilməz. Aİ prezidenti Şarl Mişel müflisləşib, Aİ isə dişsiz təşkilatdır ki, xristian erməni xalqını və demokratik Ermənistanı Azərbaycanın nefti və qazına qarşılıq qurban verməyə hazırdır"...

Göründüyü kimi, xəstə təfəkkür və sağalmaz qara yara sindromu. Armen Qriqoryanın bir tərəfdən "xristianlıq" amilini zorla müzakirə obyektinə çevirməsi, gözə soxması, digər tərəfdən isə seksual azlıqlar məsələsində müsbət düşüncələrə sahib olduğunu nümayiş etdirməsi ilə kilsəni və mühafizəkar erməni cəmiyyətini hədəfə alması, ittiham etməsi sadəcə haqqında bəhs etdiyimiz sirk tamaşasının ən gülməli səhnəsidir!

**"Bir keçi qılına" satma xəstəliyi**

Ermənistanın Təhlükəsizlik Şurasının katibi "göz yaşlarını" axıdarkən onu da unutmayıb ki, Ermənistanın Rusiyadan aşırı dərəcədə asılılığı əvvəlki erməni rəhbərliklərindən qalan izdir və Paşinyan bu izi siləcəkmiş. Lakin fakt budur ki, Paşinyanın həmin izi silməsi üçün ABŞ ona zəmanət verməlidir. Ancaq görünən tərəf həm də budur ki, Qriqoryan həmin ifadələrini işlədərkən hələ də Rusiyanı satmasına görə bərk qorxu hissi keçirdiyini də gizlətmir.

Ümumilikdə isə Paşinyan komandasının aparıcı üzvlərindən olan Qriqoryan artıq Rusiyanı "bir keçi qılına" satıb, əlavə olaraq isə iddia edib ki, Cənubi Qafqazda Azərbaycanın, Türkiyənin və Rusiyanın maraqları üst-üstə düşür və yalnız Ermənistan (?!) regionda ABŞ-ın yeganə müttəfiqinə çevrilib və s.

Gələk digər sərsəm iddialara. Ermənistan TŞ-nın katibi deyib: "Ermənistan KTMT-dən çıxmağı öz qarşısına qətiyyətli məqsəd kimi qoyub. Xüsusilə, Azərbaycanın 13- sentyabrdakı "aqressiyasından" sonra. Bu yaxınlarda sərhəddə baş vermiş gərginlik zamanı Ermənistan ikitərəfli əsasa söykənərək Rusiyadan yardım istədi, amma Moskva bizə rədd cavabı verdi. Reallıq belədir ki, Rusiya Azərbaycanın Zəngəzur dəhlizi diskursunu və Ermənistanın parçalanmasını dəstəkləyir. Moskva erməni demokratiyasını özünə təhlükə kimi görür və bunun səbəbidir ki, son zamanlarda minlərlə rusiyalı vətəndaşlar Ermənistana müraciət ediblər ki, bu da bizim ölkənin demokratik dövlət olduğunu göstərir", özü də dediklərinə inanmayan Qriqoryan iddia edib.

Tarixdə görünməyən satqınçılıq - Ermənistan Gümrüdəki hərbi bazada çalışan rusiyalı xüsusi xidmət əməkdaşlarının şəxsi məlumatlarını ABŞ kəşfiyyatına təqdim edib!

Armen Qriqoryanın ölkəsinin və ölkə rəhbərliyinin nə qədər satqın və xəyanətkar olması faktını əsaslarla sübuta yetirən daha bir etirafı. O, qərbli-amerikalı siyasətçilərlə müzakirələrini apararkən deyib ki, Ermənistan hakimiyyəti Gümrüdəki Rusiyaya məxsus hərbi bazanın ölkə ərazisindən çıxarılması üçün hökumətdaxili diskussiyalar aparır və..!

Və görünməmiş etiraf - onlar, yəni Ermənistan hakimiyyəti Rusiya hərbi bazasında çalışmış bütün xüsusi xidmət əməkdaşların məlumatlarını, informasiyalarını Qərb, daha dəqiq desək, ABŞ kəşfiyyatına təqdim ediblər!

Yəni qəbul olunmuş müəyyən standartlara görə, bir ölkənin müvafiq qurumları onun ərazisində fəaliyyət göstərən digər müttəfiq ölkənin xüsusi xidmət əməkdaşlarının, yaxud agentura şəbəkəsinin məlumatlarını üçüncü ölkələrə ötürməsi birbaşa xəyanət kimi qiymətləndirilir. Bu, istər yazılmış, istərsə də yazılmamış qanunlarda var. Misal üçün, İkinci Dünya müharibəsindən sonra Şərqi və Qərbi Berlinə bölünmüş Almaniyada müharibə zamanı çalışmış xüsusi xidmət orqanları barədə heç bir tərəf, hətta müttəfiqlər belə, bir-birinə şəxsi məlumatlar verməmişdilər. Lakin nəzərə alsaq ki, bu gün ortada erməni amili var onda reallığa qalanda bundan da təəccüb etməyə dəyməz...

Beləliklə biz tariximizdə Ermənistanın daha bir satqınçılıq xislətinin şahidlərinə çevririlik. Bir vaxtlar Osmanlı Türkiyəsinə xəyanət edən ermənilər indi uzun illər onları öz qoynunda ilan kimi bəsləmiş Rusiyaya xəyanət edirlər. Və bu da "dünyanın ən qədim xristian xalqının nümayəndələrinin" aşkar sima(sızlıq)larıdır! Artıq tam əminliklə deyə bilərik ki, Ermənistan özü üçün gor qazıb, sadəcə qalır həmin gora düşməsi...

***Rövşən RƏSULOV***

*Dünyada peşələr çoxdur. Deyilənə görə, 20 mindən artıq peşə və sənət növü var. Lakin bütün bu peşələrin sahiblərini bir peşə sahibi yetişdirir. Bu, Müəllimdir! Əslində, yazı qaydalarını pozmaq bahasına olsa belə, bu sözü böyük hərflə yazmaq lazımdır.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" çərçivəsində hazırlanıb.*

# Ətrafı işıqlandırmaq üçün özünü tükəndirən şam

Harada, nə üzrə və hansı qaydada tədris verməsindən asılı olmayaraq Müəllim özündən daha yüksək biliyə mailk olan, cəmiyyətə töhfələr bəxş edəcək ağıllı, mədəni və ziyalı insanlar yetişdirmək istəyi ilə çalışır. Məhz buna görə Müəllim adı şərəfli sayılır və uca tutulur.

Təsaüfi deyil ki, bizim cəmiyyətdə müxtəlif müraciətlər formaları (yoldaş, cənab, bəy, xanım) olsa da insanlarımız hörmətə layiq bildikləri şəxsə "Müəllim" deyə müraciət edirlər. Təkvə bu fakt "Müəllim"in ən hörmətli söz olduğunun əyani sübutudur.

Bəşəriyyət tarixi elmi-texniki tərəqqiyə, mədəni-ictimai inkişafa görə ustadlara, müəllimlərə borcludur. Qədim mənbələrdə ilk biliyin insanlara İlahidən verildiyini və bunu hamıya çatdırmaq üçün ən təmiz qəlbli insanların seçildiyi qeyd olunur. İnsanın ilk müəllimləri də Tanrının seçdiyi uca insanlar- İlahi bilik sahibləri olub.

Tarixin sonrakı dövrlərində biliklər ustad-şagird ardıcıllığı ilə nəsildən-nəsilə ötürülüb və bu günümüzədək gəlib çıxıb. Hansı xalqın müəllimləri aydın fikirli, elmli, dünyagörüşlü olubsa, o xalq daha çox inkişaf edib. Ta qədimdən Azərbaycan xalqı ustada- Müəllimə böyük hörmət bəsləyib, onları valideyn qədər əziz tutub. El arasında Müəllimin ən böyük hörmət və izzət sahibi olduğunu göstərən yüzlərlə atalar sözü, deyimlər, aforizmlər, rəvayətlət və s şifahi və yazılı folklor nümunələri var.



Azərbaycanda həmişə ən hörmətli şəxs sayılan Müəllimin sözü ağsaqqal sözü kimi qəbul olunub. Hətta, ən qüdrətli hökmdarlar belə müəllimlərinin qarşısında baş əyiblər, onları özlərindən yuxarı başda əyləşdiriblər. Qədimlərdə valideyn uşağını müəllimə verəndə "əti sənin sümüyü mənim" deyə tapşırardı.




Böyük tarixi şəxsiyyətlərimin, görkəmli dövlət başçılarının öz ustadlarına nə qədər böyük sevgiylə yanaşdığını və onların yolunu necə böyük əzmlə davam etdirdiyini xatırlamaq burada yerinə düşərdi.

Özləri ən böyük Müəllim olan böyük övliyalar, peyğəmbərlər, alimlər həmişə bütün uğurlarını müəllimlərinə borclu olduqlarını qeyd ediblər. Zərdüşt peyğəmbər, Məhəmməd peyğəmbər, İsa peyğəmbər, Dədə Qorqud, Nizami kimi böyük dini-elmi-fəlsəfi bilik sahiblərinin tarxdə yaşayan kəlamları Müəllim şəxsiyyətinin az qala Tanrı səviyyəsinə qədər ucaldığını göstərir.

Teymurləngin məzarı önündə bunu daha aydın anlamaq olur. Qüdrətli sərkərdə öz qəbrini müəlliminin məzarının ayaq ucunda qoyulmasını vəsiyyət etmişdi və onun bu müdrikliyi hələ də dünyanı heyran qoymaqdadır.



Hər xalqın tarixinin müəyyən dövrlərində Müəllimə daha böyük ehtiyac duyulub. Azərbaycan xalqı da 19-cu əsrin sonlarında və 20-ci əsrin əvvəllərində müəllimlərə çox böyük ehtiyac duyurdu. Böyük mütəfəkkirlər Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, Mirzə Fətəli Axundov və digərləri xalqın cəhalətdən qurtulması, mövhumata yox, elmə doğru getməsi üçün mübarizə aparırdılar.

Tarixi həqiqətdir ki, xalqımız məhz belə aparıcı ziyalıların, mütəfəkkirlərin çağırdığı yolla gedəndən sonra inkişaf etdi və qısa zamanda dünya xalqları arasında öz layiqli yerini tutdu.

Sovet dövründə respublikada elm-təhsil ocaqlarının, kitabxanaların tikintisi işini böyük vüsət aldı, azərbaycanlı tələbələrin SSRİ-nin və dünyanın inkişaf etmiş digər ölkələrinin nüfuzlu ali təhsil ocaqlarında təhsil alması işi genişləndi.

Hələ carizm istibdadı dövründə aparılan sosioloji tədqiqatlar nəticəsində belə qənaətə gəlinmişdi ki, bu templə təhsillənmə gedərsə Qafqaz xalqlarına savadsızlığın daşını atması üçün 940 il vaxt lazım gələcəkdir. Amma Sovet hakimiyyəti qurulandan sonra cəmi 20 il ərzində təhsil sahəsində elə bir inqilabi epoxa yaşandı ki, bütün dünya heyrətə gəldi. Artıq ötən əsrin ortalarında Azərbaycan əhalinin təhsilə cəlb olunma səviyyəsinə, əhalinin hər on min nəfərinə düşən elmi işçi, tələbə və müəllim sayına görə ən inkişaf etmiş ölkələri belə qabaqlayaraq dünyada ilk yerlərdən birini tuturdu.

20-ci illərədək bir nəfər də olsun akademiki, professoru, elmlər doktoru olmayan, əhalisinin 99%-nin oxuyub-yazma bilmədiyi, cəmi 100 nəfər azərbaycanlı müəllimi olan, 800 min uşağının məktəbin nə olduğunu bilmədiyi respublika qısa müddət sonra əhalisi 100% savadlanmış, onlarla universiteti, elmlər akademiyası, elmi-tədqiqat institutları, hətta kosmik tədqiqatlar mərkəzi olan intellektuallar ölkəsinə çevrildi. Hələ də Azərbaycan xalqı savadlı insanların, ali təhsillilərin say nisbətinə görə, dünya xalqları arasında ön sıralarda dayanır.

Ümumiyyətlə, Azərbaycan xalqı tarixin bütün dövrlərində maarifpərvər və ziyalı bir xalq olduğunu sübut edib. Burada ən böyük rolu müəllimlər oynayıblar. O müəllimlər ki, onlar elm və təhsil yolunda, millətin gələcəyi uğrunda sözün həqiqi mənasında şam kimi yanıblar.

Cəmiyyətimiz də onlara həmişə çox böyük hörmətlə yanaşıb. Müəllimi uşağın ikinci valideyni sayıblar. Keçmişdə uşağı məktəbə gətirən valideynlər müəllimə deyirdilər- "əti sənin, sümüyü mənim". Bu ifadənin arxasında çox dərin və müdrik təfəkkür dayanır. Bütün bunlar xalqımızın elmə, təhsilə nə qədər böyük önəm verdiyinin göstəricisidir.

Müəllim ucalığı haqda saysız poeziya və nəsr nümunələri, bədii və elmi əsərlər yazılıb, filmlər çəkilib. "Bizim Cəbiş Müəllim" filmindəki obraz isə Azərbaycan Müəllimi üçün etalondur. Bu obraz həm də bir nümunədir- əsil Müəllim nümunəsi...

Müəllimlər Günü münasibətilə bütün vicdanlı müəlimləri təbrik edirəm.

**_Elçin Bayramlı_**

SON SƏHİFƏ

# Səs

6 oktyabr 2022-ci il

# DİQQƏT: Təmiz balı saxta baldan necə ayırd etmək olar?

***“Saf bal bir neçə xüsusiyyətinə görə, saxta baldan fərqlənir. Balı qaşıqla götürdükdə bal qaşıqdan su kimi süzülürsə və ya saqqız kimi uzanmırsa, deməli, bu bal saxta baldır. Bundan əlavə olaraq balı soyuq havada saxladıqda əgər, həmin bal donursa, deməli saf baldır.***



Əgər bal soyuq havada donmasa, şirə kimi qalsa deməli bu bal saxta baldır. Həmçinin balı su ilə qarışdırdıqda bal su ilə qarışsa, deməli həmin bal saf bal deyil”. Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.

Onun sözlərinə görə, balın yaddaşı var:

”Bal öz pətəyini yaddaşda saxlayır. Məsələn boşqaba bir çay qaşığı bal və yarım stəkan su tökürük. Saat əqrəbinin əksinə suyu üstündə gəzdiririk. Əgər bal bir dəqiqə ərzində öz pətəyi şəklini alsa deməli həmin bal təmiz baldır. Bildiyimiz kimi təmiz bal boğazı yandırır.

Balın beynə çox böyük faydaları var. İmmun sistemini gücləndirir və eroksin maddəsinin artmasına səbəb olur. Eroksin maddəsi insanı yorğunluqdan qurtaran bir maddədir. Balın tərkibində faydalı elementlər olduğuna görə, insan orqanizminə faydaları çoxdur. Amma şəkər diabet xəstələri balı həkim nəzarəti altında istehlak etməlidir”.

***Arzu Qurbanlı***

# 83 yaşlı həkim: Stresi ram etməyin ən effektli yolu budur!



***Rusiyanın ən məşhur kardioloqu Leo Bokeriya streslə mübarizə yollarından danışıb. 1939-cu ilin dekabrında dünyaya göz açan, uşaq ikən yaxınlarını itirən həkim deyib ki, ona qohumları və qonşuları narahatlıq və məhrumiyyətlərin öhdəsindən gəlməyə kömək edib.***

Məşhur rusiyalı həkim bu barədə ”Kp.ru”ya danışıb. ”Anam üçümüzü böyüdüb, hamımızın ali təhsili var. Mən yalnız acılığı deyil, həm də ümid verib dəstək olan qonşuları yaxşı xatırlayıram. Ona görə hesab edirəm ki, sakitliyin mühüm hissəsi, panikaya düşməyə imkan verməyən ailədir”, - kardioloq vurğulayıb.

Bundan əlavə, Bokeriya bədəninizi və özünüzü dinləməyə çağırıb: ”Hər problemə görə həkimə qaçmamalısınız, ancaq bir şey sizi həqiqətən narahat edirsə, müalicəni gecikdirməməlisiniz”. O, həmçinin piylənməyə yol verməməyi tövsiyə edib.

Kardioloq bildirib ki, davamlı gəzinti həm narahatlıqla mübarizə aparmağa kömək edəcək, həm də ürək xəstəliklərinin və yaşa bağlı dəyişikliklərin qarşısını almaq üçün faydalıdır. Bokeriya emosiyaları gizlətməməyi, hadisələri hiss etməyi və hisslərinizi ifadə etməyi məsləhət görüb. ”Həyatda ən vacib şey xoşbəxt olmaq arzusudur” - həkim yekunda əlavə edib.

# Neftimizin qiyməti 97 dollara yaxınlaşdı...

Dünya bazarında ”Azeri Light” markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 3,38 ABŞ dolları, yaxud 3,62 % artaraq 96,72 ABŞ dolları təşkil edib. Bu barədə SİA-ya neft bazarındakı mənbə məlumat verib. Hərraclarda ”Brent” markalı neftin oktyabr fyuçersləri 91,8 ABŞ dollara satılıb. Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 85 ABŞ dollarından götürülüb.

Xatırladaq ki, ”Azeri Light” neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. Azərbaycanda neft əsasən ”Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 %-dir.



# Məşhur cütlük arasında gərginlik



***İyulda Las-Veqasda ailə quran Cennifer Lopez ilə Ben Afflekin münasibətlərində gərginlik yaranıb.***

Milli.az xəbər verir ki, dağınıq biri olan Afflek evdə əşyalarını toplamaması cütlük arasında mübahisələrə səbəb olub.

Aşiqlərə yaxın olan mənbənin sözlərinə görə, Ben hətta Cenniferin nə geyinib-geyinməyəcəyinə də qarışır.

## BİLİRSİNİZMİ?



**Qadınlar 17 ilini yalnız artıq çəkidən xilas olmaq üçün xərcləyirlər.**

* * *

**Qadınlar 8 ilini alış-verişə, 1,5 ilini isə qadın salonunda keçirir.**

* * *

**İnsan 1 ilini ev təmizliyinə sərf edir.**

* * *

**İnsan ömrünün 10 ilini işləməklə keçirir. (20-65 yaş arası həftədə 40 saat işləyənlər)**

* * *

**İnsan ömrünün 90 faizini qapalı mühitdə keçirir.**

* * *

**İnsan ömrü boyunca 9 il televiziya seyr edir. 2 il isə sadəcə reklamları izləyir.**

## ELAN

**Xəzər rayon Hərbi Komissarlığı tərəfindən Kərimov Tural Yaşar oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**